

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Kitablar və sosial şəbəkələr...



7

SƏS

№ 002 (7170)

8 yanvar 2025-ci il.
Qiymәti 60 qәpik

# Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır!



2

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibə verib

# Erməni terror təşkilatları sivil dünyanı təhdid edir



8

## Azərbaycanda və dünyada QIŞ TURİZMİ



11

## Rəqəmsal və ənənəvi təhsil - ƏTRAFLI MÜQAYİSƏ



9

## 2025-ci ildə nələr BAŞ VERƏCƏK?



10

## Makron diktaturası Fransanı uçuruma sürükləyir



14

## Uşaqlar arasında yeni virus: ONLARI NECƏ QORUYAQ?



16

# Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır!

## Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibə verib

Prezident İlham Əliyev yanvarın 7-də yerli telekanallara müsahibəsində Azərbaycanda sosial sahədə atılan addımlardan danışıb. Bu il yanvarın birindən minimum əməkhaqqının və pensiyanın artdığını vurğulayan dövlətimizin başçısı qeyd edib ki, bu qədər böyük sərmayə qoyan və Qarabağın bərpası kimi qarşımızda bu qədər böyük problemi olan ölkədə bu sahəyə də bu diqqəti yetirmək, əlbəttə ki, bizim siyasətimizin, necə deyərlər, mahiyyətini göstərir. ”Yəni, Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar. Cəmiyyətdə də, siyasətdə də, ailədə də hər şey ədalətli olmalıdır və sosial ədalət prinsipləri həmişə bizim üçün vacib olub”.

Son bir neçə il ərzində dörd sosial paketin həyata keçirildiyini vurğulayan Prezident, həmçinin qeyd edib: ”İqtisadi imkanlar artdıqca biz daim sosial məsələlərin həllinə - minimum əməkhaqqı, pensiya, sosial müavinətlərin artırılması məsələlərinə də daim diqqət göstərəcəyik”.

Dövlətimizin başçısı daha sonra vurğulayıb ki, əgər dünya iqtisadiyyatının artım templərinə və inkişaf etmiş ölkələrin inkişafına, yaxud da tənəzzülə nəzər salsaq görərik ki, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edib. Əlbəttə ki, bunun təməlində düşünülmüş siyasət dayanır. Bu göstəricilərin, sadəcə olaraq, keçən ilin məhsulu olmadığını vurğulayan dövlətimizin başçısı deyib: ”Uzun illər aparılan iqtisadi islahatlar, şəffaflıq, inhisarçılığa qarşı mübarizə, investisiyaların cəlb edilməsi, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində biz beynəlxalq aparıcı reytinq agentliklərinin Azərbaycana olan münasibətində müsbət dəyişiklik görürük. Yəni, onlar da reallıqları inkar edə bilməzlər. Halbuki mən hesab edirəm ki, bizim beynəlxalq reytinqimiz indikindən daha yüksək səviyyəyə layiqdir və müəyyən səbəblər üzündən hələ ki, aparıcı reytinq agentlikləri daha da təvazökar yanaşmanı sərgiləyirlər. Yəni, bütün bunlar onu deməyə əsas verir ki, biz iqtisadi sahədə dayanıqlı inkişafa nail ola bilmişik və əminəm ki, bu il və gələn illərdə bu dinamika saxlanılacaq”.





”Bildiyimə görə, bu (COP29), Avropa Komissiyasının Prezidentinin iştirak etmədiyi ilk COP oldu. Halbuki onun iştirakı bir neçə ay əvvəl artıq təsdiq edilmişdi.” Bunu Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində deyib.

COP29-un təşkilat komitəsinin Avropa Komissiyası ilə təmas qurduğunu və qarşı tərəfə Bakıya səfər etmək üçün kifayət qədər vaxtın olduğunu bildirdiyini söyləyən dövlətimizin başçısı diqqətə çatdırıb: ”Ancaq yenə də bu mesaja Avropa Komissiyası tərəfindən əhəmiyyət verilmədi. Əlbəttə bu, COP29-un keçirilməsinə xələl gətirmədi, ancaq COP-a üzv olan tərəf kimi Avropa Komissiyasının iştirak etməməsi çoxsaylı suallar doğurur”.

### “Azərbaycanın D-8-ə qəbul edilməsi ölkəmizin nüfuzunu bir daha göstərir”

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanın D-8-ə qəbul edilməsi ölkəmizin nüfuzunu bir daha göstərir. Otuz ilə yaxın bundan əvvəl yaranmış təşkilatın birinci genişlənmə qərarından sonra qəbul edilən ilk üzvün Azərbaycan olduğunu vurğulayan dövlətimizin başçısı deyib ki, bu, ölkəmizin nüfuzunu, eyni zamanda, beynəlxalq aləmdə rolumuzu göstərir. Prezident, həmçinin qeyd edib: ”Dünyada 60-a yaxın müsəlman ölkəsi var və məhz Azərbaycan yeni üzv seçilmişdir. Əlbəttə ki, bu, bizim üçün həm böyük şərəfdir, həm də böyük məsuliyyətdir”.

”İndi heç kimə sirr deyil ki, yeni dünya nizamı formalaşdırılır. Hesab edirəm ki, biz bu prosesin başlanğıcındayıq, bir çox boşluqlar yaranmaqdadır və yaranacaq.” Bu fikirləri Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində səsləndirib.

İkinci Dünya müharibəsindən sonra yaranmış sistemin artıq öz potensialını itirdiyini bildirən dövlətimizin başçısı vurğulayıb ki, bunu bir çox yerlərdə gedən proseslər, münaqişələr, müharibələr və sair hadisələr göstərir. ”Eyni zamanda, aparıcı Qərb ölkələrində siyasi və mənəvi böhran da göz qabağındadır. Yəni, bu gün Qərbin üzləşdiyi vəziyyəti ən çox tənqid edən Qərbin aparıcı ölkəsinin seçilmiş prezidentidir, haqlı olaraq tənqid edir. Çünki bu sistem artıq tükənib”, - deyə Azərbaycan Prezidenti əlavə edib.

### İlham Əliyev: “Ermənistan faktiki olaraq bölgə üçün bir təhdid mənbəyidir”

Ermənistanın faktiki olaraq bölgə üçün bir təhdid mənbəyi olduğuna diqqət çəkən dövlətimizin başçısı qeyd edib ki, müstəqil Ermənistan dövləti, əslində, faşist dövlətdir. Çünki əgər bu ölkəyə 30 ilə yaxın faşist ideologiyasının daşıyıcıları rəhbərlik ediblərsə, bu ölkəni onlar elə özləri kimi də formalaşdırıblar.

Ölkəmizin faşist dövlətlə qonşu olduğunu və faşizm təhlükəsinin sovuşmadığını xatırladan Prezident bildirib: ”Ona görə faşizm məhv edilməlidir. Bunu ya Ermənistan rəhbərliyi məhv edəcək, ya da biz məhv edəcəyik. Bizim başqa çarəmiz yoxdur. Ermənistanın silahlanması, sadəcə olaraq, yeni gərginliyə gətirib çıxaracaq. Biz bunu istəmirik. Biz sülh istəyirik.”

Prezident İlham Əliyev daha sonra diqqətə çatdırıb ki, Amerikada da Soros dövrü başa çatıb. Bayden administrasiyası, əslində, Soros idarə üsulu ilə idarə olunurdu. Sorosçuların faktiki olaraq mövqelərini itirdiklərini vurğulayan dövlətimizin başçısı deyib ki, Ermənistan rəhbərliyi bunu nəzərə almalıdır. ”Nəzərə alsın ki, Yaxın Şərqdə onların yaxın müttəfiqi Əsəd diktaturası artıq tarixin zibilliyinə göndərilib və bu, davam edəcək, ona görə düzgün addım atsın. Biz Azərbaycan olaraq onlar üçün təhlükə mənbəyi deyilik. Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar. Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə kimi fəaliyyət göstərməsinlər. Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır.

### “Aparıcı Qərb ölkələrində siyasi və mənəvi böhran göz qabağındadır”

Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır”, - deyə Prezident əlavə edib.

”Biz üç il ərzində 10 yaşayış məntəqəsinə keçmiş köçkünləri qaytara bilmişik. On mindən çox köçkün artıq evlərlə təmin edilib və orada yaşayır. Bütövlükdə 30 minə yaxın insan orada yaşayır, müxtəlif vəzifələrdə çalışırlar, inşaatda, dövlət işlərində və digər sahələrdə.” Bu sözləri Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində deyib. ”Bu il üçün bizim planlarımızda daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş köçkünləri qaytarmaqdır. O şəhər və kəndlərin adları artıq seçilib, layihələr icra edilir. Bir çox kəndlərdə, şəhərlərdə indi inşaat işləri gedir və bu ilin sonuna qədər 30-a yaxın yaşayış məntəqəsində keçmiş köçkünlər məskunlaşacaqlar”, - deyə dövlətimizin başçısı qeyd edib.

Prezident İlham Əliyev qeyd edib ki, əgər fransız siyasi səhnəsində konsensus varsa, həmin konsensus yalnız azərbaycanofobiya zəminində olur. Təəssüf ki, təkcə hazırkı hakimiyyət deyil, hakimiyyətə iddialı olanlar da bir-birindən o qədər də fərqlənmirlər.

Hələ Rusiya sülhməramlılarının olduğu dövrdə Qarabağa qanunsuz səfərləri xatırladan dövlətimizin başçısı deyib: ”Axı, onlar Fransanın indiki prezidentinin rəqibləri idi, Paris meri də, yeri gəlmişkən, o, seçkilərdə namizədliyini irəli sürmüşdü. Parisin daxil olduğu regionun qubernatoru da seçkilərdə prezident Makronun rəqibi idi və bu yaxınlarda qısa müddətdə Baş nazir vəzifəsini tutmuş cənab Barnye də bu məsələdə fərqlənir”. Prezident İlham Əliyev, həmçinin vurğulayıb ki, islamofobiya və prinsipcə ksenofobiya fransız siyasi sinfinin fərqli cəhətləridir.

Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Azərbaycan ilə İran arasında münasibətlərə, İranın yeni rəhbərliyinin bundan sonrakı siyasətinə toxunub. Dövlətimizin başçısı bununla bağlı qeyd edib: ”Bu barədə danışmaq bir qədər tezdir. Çünki hazırkı İran rəhbərliyi ilə bizim elə ciddi təmaslarımız olmayıb. Hökumət üzvləri arasında müəyyən təmaslar olub. Onlar daha çox iqtisadi və nəqliyyat məsələlərinə aid idi”.

Azərbaycan Prezidenti əvvəlki hakimiyyətlə münasibətlərin pisləşməsi ilə bağlı bəzi məqamları da xatırladıb.

”...Daha sonra səfirliyimizə qarşı terror aktı törədildi və bu, təşkil olunmuş terror aktı idi. Bunu deməyə əsas verən bir çox amillər var idi. Birincisi, təxminən 40 dəqiqə ərzində bir dənə də polis maşını oraya yaxınlaşmamışdı. Halbuki bu, paytaxtın mərkəzində idi. Terroru törədən şəxs sonra dərhal, ertəsi gün psixi xəstə elan edildi. Halbuki istənilən tibbi ekspertiza bir neçə gün davam edir. Həmin bu şəxs elə terroru törətdiyi gün mətbuata çıxıb və müsahibə verir. O hadisədən iki il keçir. Bu günə qədər o insan ona verilən hökmə məruz qalmayıb. Bütün bunlar göstərir ki, bu, təşkil olunmuşdu”, - deyə dövlətimizin başçısı diqqətə çatdırıb.

Prezident İlham Əliyev eyni zamanda bir sıra iqtisadi məsələlər barədə də fikirlərini açıqlayıb. ”Ümid edirik ki, bu il biz AÇG-də ”Dərin Qaz” layihəsindən ilk qazı alacağıq və bu, bütövlükdə qaz hasilatına gözəçarpan töhfə olacaq. Bununla belə, ”Şahdəniz”in hələ də əsas qazı təchiz edən yataq kimi qalacağını nəzərə alsaq, biz ”Abşeron”da qaz hasilatının 1,5-dən 5 milyard kubmetrə qədər artırılması məqsədilə tərəfdaşlarla çalışmağı planlaşdırırıq”, - deyən dövlətimizin başçısı əlavə edib ki, bununla yanaşı, ”Qarabağ”, ”Babək”, ”Asiman” və digər yataqlar kimi çox perspektivli layihələr var. Bu, potensialımızı artıracaq.

Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Yaxın Şərqdəki proseslərlə bağlı fikirlərini bölüşüb. ”Biz çox şadıq ki, Suriyada dəyişikliklər baş verdi və bu münasibətlə Türkiyə ilə Suriyanın yeni hökuməti arasında mövcud olan əlaqələr, əlbəttə ki, bizi də çox sevindirir. Çünki Suriya Türkiyə ilə həmsərhəd olan ölkədir və hər bir ölkə öz sərhədlərinin kənarında vəziyyəti sabit görmək istəyir”.

Prezident vurğulayıb ki, Türkiyənin bütün digər sərhədlərində də terrorçuluğa yer olmamalıdır. ”Biz də Türkiyənin müttəfiqi kimi hər zaman istənilən formada onların yanındayıq və bunu Türkiyə tərəfi bilir”, - deyə dövlətimizin başçısı əlavə edib. Azərbaycan Prezidenti, eyni zamanda, İsrail-Fələstin məsələsində də mövqeyimizin dəyişməz olaraq qaldığını söyləyib.

# Prezidentdən mühüm SƏRƏNCAM



## Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqları artırılıb

Prezident İlham Əliyev dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən aşağıda göstərilən təşkilatlarda çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşları 2025-ci il yanvarın 1-dən orta hesabla 15 faiz artırılır: Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və Aparatı, Gəncə bölməsinin Aparatı, Heydər Əliyev Mərkəzi, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Azərbaycanda Atatürk Mərkəzi, Azərbaycan Respublikasının dövlət arxivləri və onların filialları, rayon (şəhər) dövlət arxivləri, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupu, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin Aparatı, Maliyyə Nazirliyi yanında Maliyyə Elm -Tədris Mərkəzi, Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi -Metodiki və İxtisasartırma Mərkəzi, Mədəniyyət Nazirliyinin Dövlət Film Fondu, Mədəniyyət Nazirliyinin tabeliyində Quba şəhərində "Soyqırımı memorial kompleksi", Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin Aparatı, Səhiyyə Nazirliyinin Məhkəmə - Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi, Dövlət Turizm Agentliyinin Milli Kulinariya Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu, icra hakimiyyəti orqanlarının nəzdindəki mərkəzləşdirilmiş mühasibatlıqlar.

# Türkiyəli icmalçı:

## Fransa sırf müstəmləkəçi ölkə ruhunda hərəkət edir

***Rəsmi Paris Fransa ilə Komor adaları arasında mübahisəli ərazi olan Mayotta departamentində tüğyan edən "Çido" qasırğası ilə bağlı dağıntıların miqyasını dünya ictimaiyyətindən gizlətməyə çalışır. AZƏRTAC xəbər verir ki, bu barədə "İndependent Türkçe" nəşrinin icmalçısı Sare Şanlı yazır.***




"Müstəmləkəçi yanaşmanın kölgəsində qalan faciə... Makronun Mayotta səfəri: "Fransanın bir hissəsi olduğunuza görə minnətdar olun" sərlövhəli nəşrin müəllifi qeyd edir ki, Fransanın ən yoxsul ərazisini vuran qasırğa Mayottanın onsuz da zəif olan infrastrukturunu məhv edib.

"Təbii fəlakətdən iki həftədən çox vaxt keçməsinə baxmayaraq, faciə qurbanlarının konkret sayı hələ də açıqlanmayıb. Fransa nümayəndələri adanın 31 sakininin həlak olması ilə bağlı bəyanatlarla məhdudlaşaraq faciənin miqyasını azaltmağa çalışırlar. Lakin, fakt odur ki, Mayottada çox sayda miqrant yaşayır. Eyni zamanda, cəsədlərin bir hissəsi tələsik dəfn edilib, bu da qurbanların həqiqi sayının minlərlə ola biləcəyini göstərir", - deyə nəşr daha sonra qeyd edir.

Türkiyəli icmalçı vurğulayır ki, Mayotta Fransanın son vaxtlar təbii fəlakətlər və etirazlar kontekstində müzakirə olunan xaricdəki mülklərindən sadəcə biridir.

"Qasırğadan sonra Mayottaya səfər edən Fransa Prezidenti Emmanuel Makron qəzəbli insan kütləsi ilə qarşılaşıb. Ada sakinləri Fransa hökumətinin böhranın nəticələrini aradan qaldırmaq üçün atdığı addımları pisləyib, Makronun istefasını tələb edərək, onu fitə basıblar. "Mən qasırğa deyiləm! Mən baş verənlərə görə məsuliyyət daşımıram", - deyə özünə bəraət qazandıran Makron, Mayotta sakinlərini "Fransanın bir hissəsi olduğuna görə minnətdar olmağa" çağırıb. "Fransa olmasaydı, sizin vəziyyətiniz 10 min dəfə daha pis olardı", - deyə siyasətçi vurğulayıb.

"Bununla belə, o xatırlamayıb ki, "Çido" qasırğasından zərər çəkən insanlara günlərdir tibbi yardım göstərilməyib, adanın əksər sakinləri içməli sudan məhrum olublar, humanitar yardım bir həftə sonra Mayottaya çatdırılıb.

Makronun hərəkətləri göstərdi ki, Fransa sırf müstəmləkə ölkəsi ruhunda hərəkət edərək Mayotta sakinlərinin problemlərini həll etməkdən uzaqdır. Fransa lideri ada sakinlərinin qeyri-bərabərliyini və yoxsulluğunu norma və təbii vəziyyət kimi təqdim etməyə çalışıb", - deyə Şanli yazır və Mayotta əhalisinin hələ də su və elektrik enerjisindən adekvat istifadə imkanından məhrum olduğuna işarə edir. Eyni zamanda, Parisin "yardım siyasəti" problemlərin həllinə kömək etmir, böhranı yalnız daha sonrakı tarixə təxirə salır.

"Orta hesabla, Mayottada hər 10 evdən dördü faner və metal təbəqələrdən hazırlanır. Hər on evdən üçündə su yoxdur", - deyə türkiyəli icmalçı daha sonra yazır və 2022-ci ildə adada işsizlik səviyyəsinin 34 faiz olduğunu xatırladır.

"Mayotta xalqı "ikinci dərəcəli" fransız olmaqdan yorulub. Fransanın Afrikada təsirinin azalması fonunda ada sakinləri müstəmləkəçiliyə qarşı mübarizədən dərs almalı və layiqli həyat hüququnu müdafiə etməlidirlər", - deyə müəllif yazır.

# Qazaxıstan mətbuatı Azərbaycan Prezidentinin çıxışından sitat gətirir

Qazaxıstan mətbuatı Azərbaycan Prezidenti İlham Əliyevin Bakı-Qroznı reysi zamanı qəzaya uğrayan "AZAL" sərnişin təyyarəsinin həlak olan ekipaj heyətinin ailə üzvləri və sağ qalan bələdçilərlə görüşündə çıxışını işıqlandırıb. Belə ki, "Tengrinews.kz" Azərbaycan Prezidentinin Aktau yaxınlığında baş vermiş təyyarə qəzası ilə bağlı təqsirkarların cəzalandırılması tələbi ilə çıxış etdiyini və ictimaiyyətin araşdırmanın ilkin nəticələrini tezliklə öyrənəcəyini bəyan etdiyini yazır.




"Kaztag.kz" nəşri dövlət başçısının sözlərinə istinadən yazır ki, Aktau yaxınlığında baş vermiş təyyarə qəzasında Azərbaycan vətəndaşlarının həlak olmasına görə məsuliyyət Rusiya Federasiyasının nümayəndələrinin üzərinə düşür. "Biz ədalət tələb edirik, günahkarların cəzalandırılmasını tələb edirik, biz tam şəffaflıq və insani davranış tələb edirik", - deyə nəşr Prezidentin sözlərini çatdırır.




"Zakon.kz" Prezident İlham Əliyevə istinadla təyyarənin "qara qutu"larının açılmasına başlanılması və fəlakətə görə günahkarların məsuliyyətə cəlb edilməsi tələbi ilə bağlı məlumat yayıb.

"Orda.kz" nəşri Azərbaycanın dövlət başçısının Dövlətlərarası Aviasiya Komitəsinin "qara qutu"larının açılmasında iştirakına qəti etirazı ilə bağlı sözlərinə istinadən qəzaya uğramış təyyarənin "qara qutu"larının Braziliyada deşifrə edilmə səbəbini izah edib.




Dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında Bakı-Qroznı reysini həyata keçirən "AZAL"ın sərnişin təyyarəsi qəzaya uğrayıb. Təyyarənin göyərtəsində olan 67 nəfərdən 38-i həlak olub, 29-u sağ qalıb.

# Qərbin barışmaqda olduğu FİASKO

***Cənubi Qafqaza hər zaman maraq göstərən Qərb artıq bir çox reallıqları görməzdən gələ bilmir. Daha dəqiq desək, Qərb artıq bəzi reallıqları görür və regiona nə qədər maraqlı olsa belə qarşılaşdığı fiasko ilə barışmaq məcbriyyətindədədir. Azərbaycana "burun soxmaq" üçün etdiyi ciddi-cəhdin mənasız olduğunun fərqində olan Qərb daha çox Gürcüstana "soxulmaq" istəsə də bunun artıq mənasız olduğunun da fərqindədir. Gürcülərin "seçimi" Qərbi dilemma qarşısında qoyub və eləcə də dünyada baş verən proseslər özü belə onlar üçün fiasko ilə barışmaqdan başqa çarə qoymayıb.***




## Qərb üçün mövcud durum artıq növbəti fiasko sayılır və bu, çoxdan dərk də, qəbul da edilib

Qərb artıq müşahidə edir ki, oyuna atdığı Gürcüstan müxalifəti heç nəyə nail ola bilmir və ancaq səs-küy salmaqdan başqa əlindən nə isə gəlmir. Eləcə də onu da müşahidə edir ki, artıq Gürcüstan hakimiyyəti öz yerini yaxşıca bərkidə bilib və heç nədən də ehtiyat etmir. Məsələn, Gürcüstanın yeni seçilən prezidenti Mixail Kavelaşvilinin ailəsi ilə birlikdə ölkəsinin katolikos-patriarxı II İlya ilə görüşməsi, ondan "xeyir-dua" alması,ələlxüsus da, katolikos-patriarxın ona uğurlar arzulaması onu göstərir ki, artıq hazırki hakimiyyət üçün hər şey öz qaydasında görünür və hansısa qorxu kompleksi qətiyyən yoxdur. Bunun da məlum səbəbləri var və hər halda bu səbəbləri Qərb özü də çox yaxşı bilir və məsələnin mahiyyətinin nədən ibarət olduğunun da fərqindədir.

Sirr deyil ki, gürcülər üçün Gürcü Pravoslav Kilsəsinin hazırkı hökumətə dəstək verməsi çox vacib məqamdır. Daha dəqiq desək, gürcülər bu məqama çox böyük önəm verirlər. Yəni, gürcülər üçün Gürcü Pravoslav Kilsəsinin "rəyi" istər Qərbin, istərsə də Avropanın hansısa "münasibətindən" daha önəmlidir. Keçirilən seçkiləri Qərbdə, ya da Avropada "kimlərinsə" tanıması, yaxud tanımaması deyil, Gürcü Pravoslav Kilsəsinin "xeyir-duası" gürcülər üçün daha vacib sayılır ki, bunu da Qərb çox yaxşı başa düşür. Başa düşür ki, sözügedən Cənubi Qafqaz ölkəsində xalq artıq həmin "xeyir-duanı" eşitdikdək sonra Qərbin hansısa oyunun baş tutması sual altında qalır. Bir sözlə, çətin ki, bundan sonra Qərbin regionun həmin ölkəsi, ümumilikdə regionla bağlı planları gerçəkləşə. Qərb üçün bu hal, mövcud durum artıq növbəti fiasko sayılır və bunu da özləri çoxdan dərk də ediblər, qəbul da ediblər.

## Məğlubiyyət qəbul edilibsə, deməli, mövcud reallıqlarla artıq çoxdan barışılıb

Doğrudur, Gürcüstan müxalifəti hələ də nəyə isə ümid edə bilər, amma bu heç də ümidlərinin doğrulacağı demək deyil. Bəli, Gürcüstan müxalifəti kütləvi etirazların guya hələ də davam etdiyini Qərbə çatdırmağa çalışır və belə dezinformasiyalarla kimlərisə aldatdığı qənaətindədir. Amma Qərb heç də "yuxuda" deyil və Gürcüstanı həmin ölkənin müxalifətindən də daha yaxşı izləyir. Daha dəqiq desək, Qərb artıq həmin müxalifətin yalandan görüntü yaratdığını çoxdan bilir və "öz hesabını da getməkdə" haqlıdır. Çünki Qərb başa düşür ki, müxalifətçi gürcülər üçün önəmli olan ancaq "dəstək" və edilən "yardım" hesab olunur. Amma Qərb belə fırıldaqları özü ssenariləşdirdiyi üçün kimlərinsə fırıldağının "oyununa düşə" bilməz. Əksinə, Qərb çoxdan öz "hesabını" gedib və bunun da fiasko olduğu ilə hətta barışıb da.

Bəli, Gürcüstan müxalifəti ölkədəki mövcud hakimiyyətin legitimliyini tanımayıb. Bunun da səbəbi heç kim üçün, xüsusən də Qərb üçün sirr deyil. Qərb çox yaxşı başa düşür ki, Gürcüstan müxalifəti, həmçinin həmin ölkədəki "oyunçuları" sadəcə "məğlubiyyəti" qəbul etmək istəmirlər və belə də olacağı əvvəlcədən bilinirdi. Bilinirdi ki, məğlubiyyəti müxalifət qəbul etməyəcək və "barışmaz" olduğunu nümayiş etdirəcək. Bu özü də əlbəttə ki, səbəbsiz deyil və onların nəyə isə ümid etdiklərinin təzahürüdür. Əgər Gürcüstan müxalifəti yeni növbədənkənar parlament seçkilərinin keçirilməsini tələb etməkdə davam edirsə, bunun özü də gözlənilən haldır və burada qeyri-adi heç nə yoxdur, hansıki, bunu da Qərb yaxşı bilir. Yaxşı bilir ki, yeni növbədənkənar parlament seçkilərinin keçirilməsini tələb etmək hələ heç nə demək deyil və bu o demək deyil ki, müxalifətçi gürcülər nə isə əldə edə bilərlər. Əksinə, Qərb məntiqi olaraq başa düşür ki, yeni, özü də növbədənkənar seçki ilə "razılaşmaq" özü belə məğlubiyyətin dolayısı ilə qəbul edilməsidir. Əgər müxalifətçi gürcülər, yəni "oyunçuları" bildikləri bunu, yəni, məğlubiyyəti qəbul ediblərsə, deməli, Qərbin fiasko ilə barışmaqdan başqa çarəsi qalmayıb və mövcud reallıqlarla artıq çoxdan barışılıb.

## Müxalifətçilərin çarəsiz durumu elə məğlubiyyət deməkdir və Qərb öz planlarının və arzularının puç olduğunun fərqindədir

Qonşu ölkədəki müxalifət qüvvələri, ələlxüsus da həmin qüvvələrin liderləri yeni seçilmiş parlamentin legitimliyini tanımadığını bəyan edilər. Guya elə hesab edirlər ki, bununla hansısa təzyiq etmiş, nəyə isə təsir etmiş ola bilərlər. Əslində, Gürcüstan müxalifəti yeni seçilmiş parlamentin legitimliyini tanımamaqla heç də mövcud hakimiyyətə zərrə qədər də təsir edə bilmir, əksinə, nə edirsə, özünə edir. Beləki, müxalifətçi gürcülər legitimliyi tanımamaqla, sadəcə olaraq parlamentin işində iştirak edə bilmirlər və bununla da yalnız özlərini parlament platformasına çıxmaqdan məhrum edirlər. Bunu da Qərb çox yaxşı müşahidə edir və görür ki, Gürcüstan müxalifəti sadəcə olaraq, çarəsiz durumdadır. Onlardan istifadə etmək istəyən Qərb üçün isə müxalifətçi gürcülərin belə bir çarəsiz durumu elə fiasko və məğlubiyyət deməkdir. Ən azından planlarının və arzularının puç olduğunun çoxdan fərqindədirlər.

Qərb artıq görür ki, qurduğu "oyunu" Gürcüstan müxalifəti qətiyyən oynaya bilmədi və bundan sonra da heç nəyə ümidi yoxdur. Artıq görür ki, müxalifətdə təmsil olunan və onların oyunlarına alət olan gürcülər, sadəcə olaraq, hansısa qüvvənin köməyi, dəstəyi, hətta təsiri ilə hakimiyyətə gəlmək arzusundadır. Fərqindədir ki, onlar sanki "sehrli çubuğun" öz işini görməsini arzulayırlar və belə zənn edirlər ki, Qərb onları öz əli ilə hakimiyyətə oturdacaq və bununla da "işləri bitmiş" hesab olunacaq. Amma bərk yanılırlar. Çünki Qərb üçün hansısa müxalifətin hakimiyyətə gəlməsi yox, həmin müxalifətin hakimiyyət naminə onun oyununun alətinə çevrilməsi lazımdır. Məhz indi Qərbə lazım olan Gürcüstanda artıq yoxdur və hansısa planlarının gerçəkləşməsi ilə bağlı ümidləri çoxdan puç olub və bunu qonşu ölkədəki hadisələrin getdikcə sönməsindən də hiss etmək, başa düşmək mümkündür.

## Gürcülər unutmamalıdırlar ki, qarşılaşdıqları hadisələrin, gördükləri "səhnəciklərin" rejissoru Qərb özüdür

Doğrudur, Qərbin məhz Cənubi Qafqazın daha bir ölkəsində rastlaşdığı məğlubiyət, qarşılaşdığı fiasko göz önündədir və qətiyyən təkzib edilə bilməz. Amma bu o demək deyil ki, gürcüləri "iş üstünə qoyanlar" daha bundan sonra əllərini, qollarını sallayıb dayanacaqlar. Qətiyyən belə düşünmək olmaz. Unutmaq lazım deyil ki, ilk növbədə heç Fransa da, Almaniya da sakitləşəcək kimi görünmür. Hər iki ölkə bu fiaskonu məhz Gürcüstanda nüfuz itgisi kimi qəbul edir və belə başa düşdüyünü heç gizlətmir də. Bu isə o deməkdir ki, Gürcüstanın mövcud hakimiyyəti real vəziyyəti düzgün qiymətləndirməli və məsələyə qətiyyən dırnaqarası baxmamalıdır.

İstənilən halda yeni-yeni "ssenarilərlə" qarşılaşa biləcəklərini gürcülər nəzərdən qaçırmamalıdırlar. Nəzərdən qaçırmamalıdırlar ki, onların qarşılaşdıqları hadisələrin, gördükləri "səhnəciklərin" rejissoru Qərb özüdür. Bu həmin Qərbdir ki, məsələn, Ukraynanı heç çəkinmədən, düşünmədən belə oyuna atdı və viran qalmasına da soyuqqanlıqla tamaşa etdi. Deməli, Ukraynanın timsalında Cənubi Qafqazın hansısa ölkəsi ilə bağlı da belə soyuqqanlılıq mümkün haldır və Gürcüstana münasibətdə də eyni yanaşma gözlənilləndir. Hər halda, "ehtiyatı əldən vermək olmaz" və bunu Gürcüstan hakimiyyəti nəzərdən qaçırmamalıdır. Gürcülər özləri də mövcud vəziyyətə son dərəcə həssas yanaşmalıdırlar və heç nəyi gözdən qaçırmamalıdırlar. Eyni zamanda xüsusi təlaşa da ehtiyac qalmır, çünki Gürcüstan müxalifətinə "marağın" son dərəcə aşağı düşdüyü, onlara olan güvənin yox olduğu da göz önündədir və bunu təsdiq edən məqamlar, arqumentlər kifayət qədərdir.

## Qərbin məhz Cənubi Qafqazda bir-birinin ardınca məğlubiyyəti qəbul etməkdən başqa çarəsi, yolu qalmadı

Görünən odur ki, Gürcüstanın qərbyönlü müxalifətinə xaricdən dəstəyin səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşüb. Bu arqumenti müxalifətçi gürcülər yox, elə Gürcüstan hökumətinin nümayəndələri də qeyd edirlər. Hətta ölkənin hakimiyyət nümayəndələri bunu əsaslandırırlar da. Qərbyönlü müxalifətə xaricdən dəstəyin səviyyəsinin hansı səbəbə aşağı düşməsini izah da edirlər. Məsələn, Tbilisi meri Kaxa Kaladze qeyd edir ki, Ukrayna ssenarisini rədd etdikdən sonra Qərbin Gürcüstana marağı tamamilə azalıb. "Ölkəmizə və hakimiyyət orqanlarına bu vaxta qədər misli görünməmiş təzyiqlər edilib. Belə təzyiqlər edilib ki, biz ölkəmizin, gələcəyin dinc əhalisinin mənafeyindən deyil, ölkəmizin təhlükəsizliyi üçün aşkar risklər təşkil edən digər böyük dövlətlərin maraqlarını nəzərə alaraq hərəkət edək", deyən Tbilisi meri əslində onu vurğulayb ki, gürcülər bunun əleyhinə çıxış ediblər və indi bununla barışmaq məcburiyyətində olan Qərbin Gürcüstan müxalifətini dəstəkləmək kimi bir marağı qətiyyən yoxdur və məhz buna görə də onlara olan dəstək əhəmiyyətli dərəcədə azalıb.

Təbii ki, Azərbaycanda nəyə isə nail ola bilməyən və Gürcüstanda münbit şəraitin olduğunu zənn edərək, qonşu ölkəyə burun soxan Qərb həmin ölkədə də istəyinə nail ola bilmədi. Bu isə o deməkdir ki, Qərb Cənubi Qafqazda bir-birinin ardınca sadəcə məğlubiyyətlə üz-üzə gəlməli oldu. Deməli, Qərb indi fərqindədir ki, Cənubi Qafqazda qarşılaşdığı ancaq fiaskodur və bundan artığına da zərrə qədər ümid edə bilməz. Çünki Ermənistandan başqa regionin istənilən ölkəsi öz müstəqilliyini, öz suverenliyini, öz milli maraqlarını hər şeydən üstün tutur. Əgər Qərb məhz Ermənistanın bu maraqlardan uzaq olduğunun fərqindədirsə, deməli, haylar heç zaman hesaba belə alınmayıblar və onları marionet kimi oynatmaqla Cənubi Qafqaza soxula bilmə etimalının sıfırdan da aşağı olduğu qətiyyən Qərbin nəzərindən qaça bilməz. Həm də hayların Cənubi Qafqazda qətiyyən söz sahibi olmadığı da, Ermənistanın bir səfil olkə olduğu da, diqqətdən yayına və hesaba alınmaya bilməz. Yəni, Ermənistan Qərb üçün tamamilə mənasız, maraqsız ölkə sayılır və bu ölkəyə hansısa "resurs" belə artıq hesab olunur. Haylar ölkəsində məhz ortada olan bəzi qarışıqlıqlar da sədəcə Qərbin həmin ölkədə qarışıqlıqdan başqa hansısa nəticə belə vəd etmir və Cənubi Qafqazla bağlı heç bir təsirinin də olmayacağı çoxdan qəbul edilib. Bu isə onu deməyə imkan verir ki, istənilən halda, Cənubi Qafqazla bağlı maraqları ilə əlaqədar Qərbin fiasko ilə qarşılaşdığını qəbul etməkdən başqa çarəsi də, yolu da qalmır...

***İnam Hacıyev***

# Demokratik birgəyaşayış mühiti: sülh və əmin-amanlıq







“Azərbaycanda əsrlərdən bəri xristian dininin mənsubları digər xalqların və konfessiyaların nümayəndələri ilə birgə mehriban dostluq, sülh və əmin-amanlıq mühitində yaşayırlar. Ölkəmizdə etnik-mədəni müxtəlifliyin və zəngin tolerantlıq ənənələrinin qorunub saxlanılması, mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına qlobal miqyasda dəstək göstərilməsi apardığımız siyasətin başlıca istiqamətlərindəndir. Cəmiyyətimizdə demokratik, hüquqi dövlətçilik prinsipləri, mütərəqqi dövlət - din münasibətləri bərqərar edilmişdir. Nümunəvi mültikulturalizm məkanı kimi tanınan Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəs eyni hüquq və azadlıqlara malikdir. Xristian həmvətənlərimiz də inanclarına uyğun ayin və mərasimləri sərbəst şəkildə həyata keçirməklə öz adət-ənənələrini layiqincə yaşadır, vətəndaşlıq borcunu vicdanla yerinə yetirərək, Azərbaycanın ictimai-siyasi, sosial-mədəni həyatında yaxından iştirak edirlər”. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını Milad bayramı münasibətilə təbrikində bildirib. Bildiyimiz kimi, Azərbaycanın pravoslav xristian icması Milad bayramını hər il təntənə ilə qeyd edir. Milad bayramının yeniliyin, paklığın, mərhəmət və xeyirxahlıq duyğularının rəmzi olduğunu bildirən Cənab Prezident bu müqəddəs gün münasibətilə bayram təbriklərini yetirərək, ailələrinə xoşbəxtlik, süfrələrinə bol ruzi-bərəkət arzulayıb: ”Yeniliyin, gələcəyə inamın, insanlar arasında xeyirxahlıq və şəfqət duyğularının rəmzi olan Milad bayramı hər il Azərbaycanda təntənə ilə qeyd edilir. Qoy bu əziz bayram ailələrinizə sevinc və səadət, süfrələrinizə bol ruzi-bərəkət gətirsin.”

Azərbaycan bir neçə pravoslav kilsəsi fəaliyyət göstərir. Dünya dövlətləri Azərbaycanın bu sahədəki təcrübəsinə böyük maraq göstərirlər. Belə ki, Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir və təsadüfü deyil ki, Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar.

**”XRİSTİAN HƏMVƏTƏNLƏRİMİZ NÜMUNƏVİ DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİNİN YARATDIĞI GENİŞ İMKANLARDAN YARARLANARAQ ÖZÜNƏMƏXSUS ADƏT-ƏNƏNƏLƏRİ, DİL VƏ MƏDƏNİYYƏTİ YAŞADIR”**

Əlbəttə ki, Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir və 7 sinaqoq, 4 gürcü kilsəsi də fəaliyyətdədir. Bütün dünya ölkələri bu mühitə maraq göstərməsi də məhz mövcud mühitdən qaynaqlanır. Xalqımızın tarixi keçmişindən qalan tolerantlıq və multikulturalizm prinsipləri ölkəmizin qanunvericiliyində də öz əksini tapıb. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Ulu Öndər Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı, qəbul edilən bir çox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirilir.

Dövlət başçısı çıxışlarının birində ”Təqdirəlayiq haldır ki, xristian həmvətənlərimiz nümunəvi dövlət-din münasibətlərinin yaratdığı geniş imkanlardan yararlanaraq özünəməxsus adət-ənənələri, dil və mədəniyyəti yaşadır, ölkəmizdə həyata keçirilən böyük quruculuq işlərində, ictimai-siyasi həyatımızın bütün sahələrində digər etiqadların nümayəndələri ilə birlikdə yaxından iştirak edirlər.” - deyə bildirmişdir.









## QAFQAZDA İLK XRİSTİAN MƏBƏDLƏRİ AZƏRBAYCANDA YARANIB

Müasir gərgin beynəlxalq şəraitdə Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, praktiki, elmi, təbliğati və təşviqati istiqamətdə fəaliyyət göstərməsi xüsusi əhəmiyyət kəsb edir. Milli mənəvi dəyərlər, azərbaycançılıq, milli, dini dözümlülük, tolerantlıq sosial-iqtisadi inkişaf və dövlətin öz siyasi xəttinə güvənməsi davamlı inkişafın və uğurların əsas amilləridir. Əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanda müsəlmanlar, pravoslavlar, katoliklər, protestantlar, yəhudilər daxil olmaqla, müxtəlif etnik və dini qruplar əsrlərdir sülh, qardaşlıq, qarşılıqlı hörmət şəraitində yaşayır. Burada etnik və dini qruplar arasında hər zaman güclü əlaqələr olub.

Azərbaycanda bütün etnik və dini qruplar öz bayramlarını uğurla qeyd edirlər. Pravoslav xristian icmasının Milad bayramı Müqəddəs gecədən başlayır. Pravoslavlara görə bu, 40 günlük orucun son günü və Miladın qeyd edilməsi üçün daha möhkəm hazırlıq vaxtıdır. Axşam, gün batandan sonra bütün ailə həvarilərin sayına uyğun olaraq 12 yağsız yeməyin olduğu masa arxasında yığışır. Yeməklərin heç biri toxunulmamış qalmamalıdır: hər birindən ən azından bir az dadmaq lazımdır. Masada bir şamın - canlı alovun yanması məsləhətdir. Müqəddəs axşam yeməyinin əsas xörəyi kutyadır. O, ənənəvi olaraq buğdadan hazırlanır, lakin digər dənli bitkilərdən də istifadə edilə bilər. Deyilənlərə görə, Milad bayramında evdən darçın və vanil ətri gəlməlidir. Yəni məxsusi yemək olmadan bu bayramı təsəvvür etmək mümkün deyil. Qədim zamanlarda daha bir ənənə olub: bayram günlərində yalnız təzə libaslar geyinirdilər. Məhz bu gecədə su, təbiətin özü və hava sanki sehrlə dolaraq bütün arzuların həyata keçməsinə kömək edir. Milad ənənələrinə görə, bayram günlərində insanlar vaxtlarını şən keçirməli, qəm-qüssədən uzaq olmalı, həyatdan zövq almalıdırlar.

Azərbaycanın pravoslav xristian icması da Milad bayramını təntənə ilə qeyd edir. Təsadüfi deyil ki, Qafqazda ilk xristian məbədləri məhz ölkəmizin ərazisində yaranıb. Müxtəlif dinlərin nümayəndələri əsrlərboyu torpağımızda dinc yanaşı yaşayır, öz adət-ənənələrini sərbəst şəkildə icra edirlər. Azərbaycanda heç vaxt milli və irqi zəmində ayrı-seçkilik, dini dözümsüzlük olmayıb. Digər konfessiyaların nümayəndələri kimi, xristianlar da cəmiyyətimizin tamhüquqlu üzvüdürlər. Ölkədə bir neçə pravoslav kilsəsi fəaliyyət göstərir.

Həqiqətən də. Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

Çoxəsrlik tolerantlıq ənənələrinin mövcud olduğu cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin, dini-mənəvi irsin və multikultural dəyərlərin qorunub-saxlanılması və daha da inkişaf etdirilməsi həyata keçirilən dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, ”Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır”.

Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib. Fərqli dini konfessiyaların nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olub, ən çətin anlarda belə bunu əməli fəaliyyətdə sübut ediblər. Bu gün ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin sülh, əmin-amanlıq şəraitində yaşaması fikirlərimizi əsaslandırır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Azərbaycanın işıqlı sabahına töhfə




Yaranmış reallıqlar dövrün tələbinə uyğun olaraq qarşıya yeni hədəflər qoyub. Azərbaycan artıq dünyaya öz sözünü deyən, qalib dövlət kimi səs salıb. Özünü təsdiq etmiş, gələcək inkişaf imkanlarına malik güclü dövlət olduğunu sübut edib. Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin Azərbaycan üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədi ilə yaradılmış Heydər Əliyev Fondu da ölkəmizin inkişafına öz töhfələrini vermişdir. Fəaliyyətə başladığı zamandan bu günə qədər həyata keçirdiyi layihələrin, tədbirlərin hər biri Azərbaycanın tərəqqisi və xalqın rifahının yaxşılaşmasına xidmət edib. Genişmiqyaslı proqram və layihələri geniş sahələri əhatə edir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın hər bir layihəsi Azərbaycanın işıqlı sabahına əvəzsiz töhfədir. Yarandığı zamandan bu günə qədər zəngin, genişmiqyaslı layihələri ilə diqqəti cəlb edib. Reallaşdırdığı layihələrin hər birində cəmiyyətdə bərabər təhsil imkanlarının yaradılması, gənc nəslin biliklərə yiyələnməsi, Azərbaycan xalqının mədəni ənənələri və mədəniyyətininin inkişafı və təbliği, insanların sağlamlığı diqqətdə saxlanılıb.

## DİNLƏRARASI DİALOQ

Xatırladaq ki, Heydər Əliyev Fondunun tarixi, mədəni və dini irsin qorunmasına xidmət edən layihələri Azərbaycanın sərhədləri ilə məhdudlaşmır. Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətli işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Artıq on ildən çoxdur ki, Fondun dəstəyi ilə Vatikanda mühüm tarixi əhəmiyyət daşıyan dini abidələr bərpa edilir. Heydər Əliyev Fondu və Vatikan tərəfindən əsası qoyulan bu uğurlu əməkdaşlıq mədəni irsin qorunmasına xidmət etməklə yanaşı, eyni zamanda, dinlərarası dialoqun inkişafına öz töhfəsini verir.

Heydər Əliyev Fondu ölkə daxili dini abidələrin bərpa və təmirinə böyük önəm verir. Müqəddəs ocaqlardan biri olan Şamaxıdakı Pirsaat Baba ziyarətgah-məscid kompleksi bərpa və yenidənqurma işlərindən sonra istifadəyə verilib.

## BÖYÜK QAYIDIŞ - DİNİ-TARİXİ ABİDƏLƏRƏ YENİ HƏYAT

Bildiyimiz kimi, Ermənistanın otuz ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal altında olan ərazilər darmadağın edilib, erməni vandallığına və təcavüzünə məruz qalıb, o məkanlardakı misilsiz mədəni irsimizə çox böyük ziyan dəyib. Yüzlərlə tarixi abidənin - muzeylərin, incəsənət qalereyalarının, məscidlərin, qəbiristanlıqların yerlə-yeksan və talan edilməsi, təhqir olunması erməni əməllərinə bir daha dünyaya təqdim etdi.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2020-ci il dekabrın 8-də Fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan etdi. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə regionda icrasına başlanılan layihəyə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olunublar. Hazırda bərpa prosesinə Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən mütəxəssislər cəlb edilib.

Bəli, bu gün dağıdılmış ərazilərin bərpası və yenidən qurulması istiqamətində abadlıq-quruculuq işlər aparılır. Bu Böyük Qayıdışa Heydər Əliyev Fondu da töhfələrini verir. Belə ki, Şuşada Cıdır düzündə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xarıbülbül" musiqi festivalı keçirilir. Heydər Əliyev Fondunun Şuşada reallaşdırdığı layihələri sırasında Üzeyir Hacıbəylinin heykəlinin açılışını qeyd etməliyik. Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilmiş heykəl Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq yenidən hazırlanıb. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb. Şuşada dahi Azərbaycan şairi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin bərpası və yenidənqurma işləri Heydər Əliyev Fondu tərəfindən aparılıb. Ağdam Cümə məscidinin bərpadan sonra açılışı oldu. İşğaldan azad olunan ərazilərdə tarixi-mədəni və dini abidələrin bərpası layihələri çərçivəsində Ağdam Cümə məscidindəki işlər yekunlaşıb və məscid əvvəlki görkəminə qaytarılıb. Mamayı məscidinin bərpadan sonra açılışını da qeyd etməliyik. Erməni işğalçıları şəhərdəki bir çox abidələr kimi ərazidəki Mamayı bulağını da erməniləşdirməyə çalışmışdılar. Bulağın üzərindəki yazılar silinib və yerinə xaç işarəsi həkk olunmuşdu. Bundan başqa, ermənilər saxtakarlıq edərək, bulağın daşlarının üzərinə erməni və rus dilində yazılmış lövhə də həkk etmişdilər. Aparılan bərpa işləri nəticəsində artıq burada erməni vandalizminin bütün izləri aradan qaldırılıb. Bundan əlavə Şuşada Heydər Əliyev Fondu tərəfindən Yuxarı Gövhər Ağa, Saatlı məscidləri, eləcə də Mehmandarovların malikanə kompleksi ərazisindəki məscid bərpa edilib. Şuşa şəhəri işğal altında olduğu illərdə erməni vandalizminə məruz qalmış Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri başa çatdı. XIX əsrdə Kərbəlayi Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn Aşağı Gövhər Ağa məscidi İbrahim xanın qızı Gövhər Ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır. Aşağı Gövhər Ağa məscidi şəhərin tarixi-memarlıq rəmzlərindən biridir. Şuşanın işğalı zamanı məscidin binası və minarələri ermənilərin zirehli texnikalarının atəşlərinə məruz qalaraq ciddi zədələnmiş, məscid vandalizmin qurbanına çevrilmişdi. Şuşada Heydər Əliyev Fondu tərəfindən ən geniş bərpa işlərindən biri dağıntıların miqyasına uyğun olaraq məhz Aşağı Gövhər Ağa məscidində aparılıb.

Bu ilin mayın 18-də Zəngilan məscidinin açılışı da yaddaqalan tarixi hadisəyə çevrildi. Qeyd edək ki, Zəngilanda yeni məscidin təməli şəhər işğaldan azad edildikdən sonra - 2021-ci il aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulub. Məscidin tikintisini Heydər Əliyev Fondu "PAŞA Holdinq" MMC - nin dəstəyi ilə həyata keçirib.

## VƏTƏN MÜHARİBƏSİNİN XRONİKASI

Vətən müharibəsinin xronikasını təqdim edən www.44days.info saytı Heydər Əliyev Fondunun dəstəyi ilə yaradıldı. 8 başlıqdan ibarət olan bu portal 44 günlük Vətən müharibəsinin salnaməsini Azərbaycan, rus və ingilis dillərində izləyicilərə çatdırır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətləri, dövlət başçısının müxtəlif beynəlxalq media qurumları və xəbər agentliklərinə müsahibələri, tvitləri, videokonfransları, onlayn görüşləri və müxtəlif ölkələrin prezidentləri və rəsmiləri ilə telefon danışıqları, yerli və beynəlxalq qurumların, müxtəlif ölkələrin və təşkilatların nümayəndə heyətləri ilə keçirilən qəbullar və s. portalda əksini tapıb.

Bütün bunlarla yanaşı Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan www.shusha.today portalını da qeyd etməliyik. Portal bu günə kimi şəhərdə baş verən hadisələri dünya ictimaiyyətinə çatdırmaq məqsədi ilə ingilis dilində yaradılıb. Portal 7 bölmədən ibarətdir. "Bizim Şuşa" adlı bölmədə şəhərin yarandığı gündən işğal olunduğu dövrə qədərki tarixi, ermənilərin Şuşa şəhərini işğal etməsi, 44 günlük müharibə, Şuşanın işğaldan azad edilməsi və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bu münasibətlə xalqa müraciəti yer alıb.

"Şuşada erməni vandalizmi" adlı ikinci bölmədə Şuşanın tarixi və mədəni abidələrinə qarşı erməni vandalizmi, Şuşanın Dövlət Tarix-Memarlıq Qoruğu elan edilməsi və bu qoruğun işğaldan sonra dağıdılması, dünya, yerli və ölkə əhəmiyyətli mədəni irs nümunələrinin talan olunması, məhv edilmiş mədəni irs nümunələrinin siyahısı və həmin abidələrin nə vaxt və kim tərəfindən inşa olunması, ermənilər tərəfindən dağıdılması haqqında məlumatlarda diqqəti cəlb edir.

## GƏRGİN ƏMƏK VƏ BACARIQ TƏLƏB EDƏN LAYİHƏLƏRİN MÜƏLLİFİ

Heydər Əliyev Fondu Qarabağda yalnız bərpa layihələri həyata keçirmir. Ölkəmizdə aparılan quruculuq işlərinə də töhfə verməklə məqsədini reallaşdırır. Azərbaycan cəmiyyətində gənc nəslin biliklərə yiyələnməsini və ölkəmizin dünya təhsil sisteminə inteqrasiyasını prioritet məsələlərdən hesab edən təhsilin inkişafına yönəlmiş genişmiqyaslı proqram və layihələri qısa bir zaman məsafəsində böyük uğurlara səbəb oldu. Mehriban xanım Əliyevanın "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı əsasında müasir standartlara cavab verən məktəb binaları inşa olunaraq yenidən quruldu. Belə ki, müəssisələrin yüksək səviyyədə yetişən nəslin ixtiyarına verilməsi gələcək nəslin sağlam, savadlı, yetkin bir formada böyüməsinə təsirini göstərməkdədir. Heydər Əliyev Fondu tərəfindən Şamaxı rayonu Bağırlı kənd tam orta məktəbi üçün inşa edilmiş 460 şagird yerlik məktəb binası istifadəyə verilib. Heydər Əliyev Fondu tərəfindən Samux şəhərində isə 80 yerlik uşaq bağçası - körpələr evi inşa etdirilib. İkimərtəbəli bir korpusdan ibarət bağça zəruri mebel və avadanlıqla təchiz edilib. Xaçmaz rayonunun İstisu qəsəbəsində 1938-ci ildə inşa olunmuş tam orta məktəb ötən müddət ərzində istifadəyə yararsız vəziyyətə düşmüşdü. Bu səbəbdən Heydər Əliyev Fondunun təhsil sahəsindəki növbəti layihəsinin ünvanı məhz Xaçmazın həmin qəsəbəsi seçildi və məktəb istfadəyə verildi. Heydər Əliyev Fondunun dəstəyi ilə bir sıra yeni inşa olunmuş məktəblər sırasında Ağstafa rayonu Zəlimxan kənd A.Asimoğlu adına tam orta məktəbin binası da var. Məktəb binasının birinci korpusu 1930-cü ildə, ikinci korpusu isə 1988-ci ildə inşa olunub. Ötən müddət ərzində bina köhnəldiyindən istifadəyə yararsız vəziyyətə düşmüşdü. Heydər Əliyev Fondu tərəfindən məktəb üçün 220 şagird yerlik yeni bina inşa edilib. Xəzər rayonunda yenidən qurulan təhsil və təlim müəssisələri Fondun təşəbbüsü ilə reallaşmışdır. Xəzər rayonunun Mərdəkan qəsəbəsində Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziya, Şüvəlan qəsəbəsində 12 saylı xüsusi internat məktəbinin inşa edilən yataqxana korpusu, Buzovna qəsəbəsində yenidən qurulan 229 saylı uşaq bağçası və s. Heydər Əliyev Fondunun təşəbbüsü nəticəsində həyata keçirilib. Heydər Əliyev Fondu tərəfindən inşa olunan 1100 şagird yerlik Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbi də qeyd etmək yerinə düşər. İsmayıllı şəhərində 6 saylı tam orta məktəbin yeni binasının istifadəyə verilməsi də Heydər Əliyev Fondunun dəstəyi ilə baş tutdu. Bu sırada Heydər Əliyev Fondunun dəstəyi ilə Şamaxı şəhərində inşa edilən 7 saylı körpələr evi-uşaq bağçası da yer alır. Bütün bu və digər görülən işlər şagirdlərin, yetişən nəslin müasir tipli məktəblərdə təhsil almasına, rahatlıqlarını təmin olunmasına söykənir.

Qısa bir zaman məsafəsində böyük işlərə imza atmaq və müəllifinə çevrilmək gərgin əmək və bacarıq tələb edir. Müxtəlif sahələrə eyni diqqəti ayırmaq və verilən vədləri vaxtında və yüksək keyfiyyətlə başa vurmaq çətin və məsuliyyətlidir. Həyatda özünü əməli fəaliyyətlə doğrultmaq, yüksək imic sahibi olmaq, ölkənin ictimai-siyasi, mədəni həyatında sözünü demək güclü iradə, böyük istedad və yaradıcılıq tələb etdiyi kimi, vətənə olan ülvi sevginin də olması vacib şərtdir. Məhz Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın gördüyü işlər bu dəyərlərə söykənir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Kitablar və sosial şəbəkələr...



***Həmişə belə olub ki, bir kitabı oxuyub qurtardıqdan sonra ikinci kitabı əlimizə almışıq. Hələ elə olub ki, günlərlə oxuduğumuz kitabın təsirindən ayrıla bilməmişik ki, növbəti kitaba başlayaq. Müasir dövrdə kitabla sosial şəbəkələri qarşı-qarşıya qoyarkən belə bir suala cavab axtarıram: görəsən iki-üç kitabı bir arada oxuya bilmədiyimiz təqdirdə, iki-üç, hətta bundan da artıq sosial şəbəkədən bir anda necə istifadə edirik? Həqiqətən çox maraqlıdır. Söhbətimizə kitablarla başlayaq...***

## Biz və kitablar

Kitab... Deyərdim ki, dünyada yaradılmış ən dəyərli vasitədir. Kitab insanın ən yaxın dostu, ömrünün bəzəyidir. Kitab sirdaşdır, hər an pıçıltılarını dinləyən, sənə düzgün yol göstərən əsl dost. Kitab vaxtdır, bəzən ilişib qalan saatları sürətlə irəliyə doğru aparan, günün haradan gəlib haraya getdiyindən insanı bixəbər edən vasitədir.

Hər kəsin yanında olub, bir gün səndən uzaqlaşdığı təqdirdə kitab səninlə qalan, dərd-sərinə şərik olan vasitədir. Kitab milyonlarla insanla tanışlıqdır. Minlərlə insan taleyi ilə tanışlıqdır. Düz yolun göstəricisi, əyri yolun düşmənidir.

Kitab xarakterdir. İnsan xarakterinin düzgün formalaşmasında tərbiyəedicidir. Nəyi necə etməyi göstərən, nəyi harada danışmağı öyrədən müəllimdir. Əməyi, zəhməti misilsiz olan müəllim. Haqqı ödənilə bilməyən öyrədicidir.







Kitab yol yoldaşıdır. Hər an yanındadır. Dünyanın harasında olsan, hansı səbəbdən olsan yanında tək olandır. Səni tək qoymayan, darıxmaqdan uzaq saxlayan, münasib olmayan dostluqlardan çəkindirən yoldaşdır. Harada gəldi dərdini sonadək dinləyən, yaralarına məlhəm olan yol yoldaşıdır.

Kitab taledir. Mənim, sənin, hamımızın taleyidir. Bir-birimizə sirrimizi-sözümüzü demədiyimiz halda, kitab bizləri bir-birimizin taleləri ilə tanış edən vasitədir. Kiminsə taleyinə acıdığımız, kiminsə taleyinə sevindiyimiz, pisi pis, yaxşını yaxşı kimi tanıtdıran, öyrədəndir.

Kitab xatirədir. Uşaqlıqdan gəncliyə, gənclikdən ahıllığa ərməğan olan xatirələr toplusudur. Bir dəfə səhifələrində gözlərin gəzəndən sonra ikinci dəfə əlinə aldığında səni gənclikdən uşaqlığa, ahıllıqdan gəncliyə aparan xatirələrdir.

Elə bütün bu səbəblərdən də kitab hər birimiz üçün dəyərlidir. Çünki o bizim də dostumuz, yoldaşımız, sirdaşımız, yol yoldaşımız, taleyimiz, xatirələrimiz olub. Kimsəyə deyə bilmədiyimiz sözümüzü dinləyənimiz olub. Qəhrəmanlarına öz dərd-sərimizi də qarışdırıb göz yaşını axıtdığımız səhifələrdir. Gecəni sübhədək ayrıla bilmədiyimiz yuxumuzdur. Dünyanın ən şirin neməti olan yuxunu illərlə qurban verdiyimiz varlıqdır. Qəhrəmanları həyat idealımıza çevrilən, bizi peşəyə, sənətə, həyata yönəldən varlıq...

Deyərdim ki, kitab ana laylasının davamıdır. Körpəikən ana laylasıyla dinclik, sakitlik, məlhəm tapdığımız halda, ömrümüzün sonrakı çağlarında bu laylaları yeganə əvəz edə bilən kitablardır. Ana laylalarına qulaq kəsib ağlamamışıq, bir də kitablarla varlığımız-yoxluğumuz hiss olunmayıb. Çəkilmişik bir guşəyə, burada onunla-ikinci ana laylası ilə baş-başa qalmışıq. Ruhumuza qida olub kitablar, ana südü tək qidamız olub. Kitab oxuyanlar xatırlayar, hansısa bir kitab səni özündən alıb elə aparıb ki, gün ərzində aclıq hissi belə duymamısan. Belə isə ən gözəl qidadır kitablar.

Kitab arzudur, bu arzuya qurulan xəyaldır. Gələcəyin, sabahındır. Qəhrəmanlarının səni səslədiyi həyat yoludur. Onlara bənzəyən həyat yolunu qurmaqda səni ruhlandıran, yolgöstərəndir. Mübarizlikdir kitab. Həyatla, haqqınla, insanlarla mübarizədir. Bütün bunları necə etməyi öyrədəndir.

Kitab bir filmdir, oxudunmu, sanki bir filmə baxdın, bir hadisənin içərisində oldun, onun qəhrəmanları ilə birgə yaşadın. Kitab bir mahnı, bir şeirdir, necə ki, bir musiqi, bir parça şeir səni səndən alıb aparır, kitab da elədir. Saatlarla gedirsən, bəzən keçmişə, bəzənsə gələcəyə...

Kitablardan bir xeyli danışdıq, bir qədər də sosial şəbəkələrdən danışaq.

## Sosial şəbəkələr və biz

Biz istəsək də, istəməsək də, həyatımızda sosial şəbəkələr var və olmalıydı da. Bunu əksər insanlar müasir dövrlə, texnologiyanın inkişafı ilə əlaqələndirirlər. Belə fikirdə olanlar da var ki, həyatımıza sosial şəbəkələr daxil edilib, onların olması məsləhət bilinib. Bu dünyanın işlərindən hələ ki, çoxlarımız bixəbərik.

Sosial şəbəkələrin yaxşı tərəfləri çoxdur. Onlar öncə məlumatlılığımız, dünyada baş verən hadisələrdən bir anda xəbərdar olmağımızdır. İnformasiyanı bir-birimizə ötürməyimiz üçün əlverişli vasitədir. Müasir dövrdə informasiya bolluğudur.




Sosial şəbəkələr arxivdir. Düzdür, ənənəvi arxivlərimiz qədər etibarlı olmasa da, bir andaca bütövlükdə silinə biləcəyini hamımız yaxşı bilsək də, lakin o hadisə nə vaxtsa baş verənədək arxivdir. Bu da bir çox iş adamlarının necə deyərlər, işinə yarayır.

Sosial şəbəkələr kitabdır. Əldə edə bilmədiyimiz və oxumaq istədiyimiz kitabları, yeni nəşrləri buradan asanlıqla tapıb oxumaq imkanıdır. Sosial şəbəkələr hər birimizin reklamıdır. Orada hər kəs öz işi, peşəsi, bacarığı ilə bağlı reklamlarını aparır.

Sosial şəbəkələr bir-birimizin ta açılmayan qapısıdır. Buradan bir-birimizin evində qonaq olur, ağsaqqal-ağbirçəyimizi, xəstəmizi yoluxur, görüşür, danışırıq. Ta vaxt ayırıb hər hansı qohum-qonşuya getməyə ehtiyac qalmır.

Sosial şəbəkələr insanların bir-birinə göstərmək istədiklərini reallaşdıran, eyni zamanda bir-birilərinə deyəcəkləri sözləri ünvanına çatdıran vasitədir.

## Bu barədə düşünək!

Belə isə, yaxşı, əksəriyyətin dediyi olsun, müasir dövrdür, internet əsridir, sosial şəbəkələr də olmalıdır. Amma nə qədər axı? Yağışdan sonra çoxalan göbələklər kimi, hər gün artan sosial şəbəkələr axı unudub bir kənara tulladığımız, kitabxanalarda toz basmaqda olan, evlərimizdən yoxa çıxan kitabların verdiyini vermir övladlarımıza. Çünki sosial şəbəkələrdən düzgün istifadə etmirik. Əlimizdəki telefonla bir anda bir neçə sosial şəbəkədə oluruq ki, bu, ən birinci sağlamlığımızı təhlükə altına alır. Daha sonra isə vaxtımızı və sözün ifadə edə bilmədiyi çox şeyləri.

Sosial şəbəkələr ailələrimizi dağıdır, sevənləri bir-birindən ayırır, övladlarımızın əxlaqına mənfi təsir göstərir, milli-mənəvi dəyərlərimizi silir, tərbiyə amilinin əksinə işləyir. Bütün bunları da bilməyən yoxdur. Hamı yaxşı bilir ki, sosial şəbəkələrdə nələr yayınlanır.

Bizlər isə azyaşlı uşaqlarımızın əlinə kitab verməkəvəzinə, smartfonları verir, onların bir guşəyə çəkilib saatlarla ortalığa çıxmamasına göz yumuruq. Hələ uşaqlarımız bir yana, özümüzdən deyək. Əlimizdə telefon sosial şəbəkələrdi ki, gəzirik. Oradan bir xəbər oxuyuruq, buradan bir nəfər dostumuza, rəfiqəmizə yazırıq, o birisində bir videoya baxırıq, daha o birindən şəkil paylaşırıq və sair. Saatlar ötüb keçir, çıxa bilmirik buradan. Təmiz hava almağı da, işdən sonra uşaqlarımıza, ailəmizə vaxt ayırmağı da qurban vermişik sosial şəbəkələrə. Bu sosial şəbəkələr isə bu gün təqdir etdiyimiz texnologiyanın uğurudur, sabahsa bataqlıqdır bizim üçün. Nə qədər çalışsaq da çıxa bilməyəcəyimiz bataqlıq...

Axı bir anda bir neçə sosial şəbəkəni necə idarə etmək olar? Bu, insana nə verə bilər? Hər yerdən bir az, yarımçıq informasiya alma, yarımçıq film izləmə, mahnı dinləmə, kitab oxuma və sair. Dəfələrlə bu yarımçıqlığın şahidi olmuşuq. Söhbət əsnasında sürətli baxıb keçmələr səbəbindən ən yaxın rəfiqənin, dostunun, yaxın qohumunun sənin yazdıqlarınla, təkliflərinlə bağlı informasiyanı almamasının və yaxud paylaşılan bir xəbərin sadəcə səhlövhəsini oxuyub, hadisənin mahiyyətindən bixəbər qalmasının şahidi olmuşuq. Bəs belə sürətlə keçmək nə qazandıracaq bizə? Əlbəttə, heç nə. Sürət zamanı deyib dururuq, lakin bu sürətin bizi durğunluğa aparmasını əsla düşünmürük.

Yenə də yazının əvvəlində dediyim fikrə gəlmək istəyirəm. Biz iki kitabı bir arada oxuya bilmədiyimiz halda, neçə-neçə sosial şəbəkələri bir anda necə oxuyuruq, görürük, dərk edirik, yadımızda saxlayırıq? Bu suallar bəlkə də bu yazını oxuyanlarda ikrah hissi doğuracaq. Lakin bu sualların cavabını ümidvaram ki, bir neçə ildən sonra əksəriyyət insanlar axtaracaq. Lakin onda artıq gec olacaq. Çünki hər mənada itirdiklərimiz qazandıqlarımızdan dəfələrlə çox olacaq.

Kitablar və sosial şəbəkələr... Hansı faydalıdır, hansı məsləhətlidir. Təbii ki, ikisi də. Lakin hər ikisindən düzgün istifadə etməklə nəyə isə nail olmaq olar. Düzgün istifadə isə düzgün vaxt ayırmaqdan və düzgün seçimdən başlayır. İstər hansı kitabı seçmək, istər hansı sosial şəbəkədə nəyə baxmaq, nəyi oxumaq olsun, faydalılar uğur gətirə bilər.

***Mətanət Məmmədova***

# Erməni terror təşkilatları sivil dünyanı təhdid edir

Tarixin elə bir mərhələsi, dövrü yoxdur ki, o vaxtlar qanlı müharibələr, münaqişələr olmasın. Hər zaman insanların qətliamı, şəhər və kəndlərin dağıdılması ilə nəticələnən qanlı müharibələr olub. Lakin diqqətçəkən məqam ondan ibarətdir heç bir müharibə və münaqişələr də bir millət digər xalqa qarşı davamlı olaraq vandallıq etməyib. Yəni qanlı cinayətlərində bir sonu olub. Erməni toplumu isə elə bir vəhşi toplumdur ki, azərbaycanlılara qarşı qanlı cinayətlər, soyqırımı aktları həyata keçirib, ancaq dayanıb-durmaq haqqında düşünməyib. Ardıcıl olaraq fürsət yarandıqca azərbaycanlıları öldürməyə, yaşayış məskənlərini yer üzündən silməyə çalışıb. Tam qətiyyətlə demək olar ki, tarix erməni vəhşiliyi miqyasında vəhşilik görməyib. 30 illik işğal dövrü zamanı erməni terrorçu toplumları Azərbaycanın tarixi abidələrini, məscidlərini, şəhərləri, kəndləri, qəbiristanlıqları xarabazarlıqlara çevirmişlər. İşğaldan azad edilmiş hər bir kənd və qəsəbəsində, şəhərlərində Ermənistan terrorçu dəstələrinin vandalizm aktlarının izlərinə rast gəlmək olar.

Azərbaycanda səfərdə olmuş və işğaldan azad edilmiş ərazilərə səfər etmiş İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Maliki jurnalistlərə verdiyi açıqlamasında gördüyü erməni vəhşiliyindən dəhşətə gəldiyini söyləyib: "Bizim burada gördüyümüz mənzərə əsl faciədir. Biz işğaldan azad olunmuş torpaqlara səfər zamanı bütün kəndlərin, yaşayış yerlərinin, tarixi və dini abidələrin dağıdıldığını gördük. Məscidlərin, dini məbədlərin dağıdılması, təhqir olunması, vandallığa məruz qalması qəbulolunmazdır. Dini məkanlara hörmətlə yanaşılmalı, onlar qorunmalıdır. Əminəm ki, dağıdılmış bu ərazilərdəki bütün dini-mədəni abidələr bərpa olunacaq. Təbii ki, yalnız ölkə və bölgə, region səviyyəsində deyil, dünya səviyyəsində insanların dini inanclarına fərq qoyulmamalı, hər bir dinə məxsus məbədlərə hörmət olunmalıdır". ICESCO Baş direktoru Salim bin Məhəmməd əl-Maliki onu da bildirib ki, hər bir müharibə təəssüf ki, əraziləri dağıntılara məruz qoyur, həmçinin müxtəlif obyektləri: "Amma buna baxmayaraq, dini-mədəni məkanların və mədəni irsin dağıdılması yolverilməzdir. Bəzən biz məlumatları alırıq, eşidirik, oxuyuruq. Amma gəlib gözümüzlə gördüyümüz mənzərə bizi çox kədərləndirir və hər birimizə təsir edir". İşğaldan azad edilən ərazilərdə ermənilərin törətdiyi vəhşiliklər, vandalizm aktları dünya üçün fəlakət deməkdir, insanlığa yönələn faciədir.

## Erməni terror maşını dünyanın əksər bölgələrinə yayıla bilər

Əgər vaxtında təsirli tədbirlər görülməsə o zaman ən təhlükəli terror təşkilatlarından olan erməni terror maşını dünyanın əksər bölgələrinə yayıla bilər. Bu isə sivil dünya üçün böyük faciələr gətirər. Bu zaman Şuşada, Cəbrayılda, Xocalıda, Ağdamda, Fizulidə, Kəlbəcərdə yaşanan erməni soyqırımları Avropada, Asiyada və digər bölgələrdə yaşana bilər. İşğaldan azad edilən ərazilərə səfərləri çərçivəsində Ağdam şəhərində olan səyahətçilər gördükləri dağıntılardan təsirləndiklərini və bölgəni "Qafqazın Xirosiması" adlandırmışlar. Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evləri, ictimai binalar, məktəblər, uşaq bağçaları, xəstəxanalar, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırılıb. Hər şeyi məhv edən erməni vandalları tarixi abidələri, qəbiristanlıqları da dağıdıblar. Vaxtilə Azərbaycanın ən varlı rayonu olan Ağdamın yerində indi talan edilərək dağıdılmış Qafqazın Xirosimasına çevrilmiş xarabalıqlar qalıb. Füzuli rayonu ərazisindəki memarlıq abidələri yerlə yeksan olunub. Qarğabazar kəndində XVII əsrə aid karvansara və məscid, XVIII əsrə aid türbə, Aşağı Ayıbasanlı kəndində İbrahim türbəsi, Qoçəhmədli kənd məscidi, Aşağı Veysəlli kəndində XII əsrə aid qəbiristanlıq və Mir Əli türbəsi (XIII əsr), Horadiz məscidi və İmamzadə türbəsi, Füzuli şəhərində Qacar, Böyük Pirəhmədli, Merdinli kəndlərindəki məscidlər, Saracıq və Gorazıllı kəndlərindəki körpülər, Merdinli kəndi yaxınlığındakı daşdan yonulan at, qoç fiqurları, dünyanın ən qədim insan məskənlərindən olan Azıx mağarası, həmçinin kurqan tipli arxeoloji abidələr erməni vandalizminin qurbanı olublar.Otuz ilə yaxın erməni işğalı altında qalmış Füzuli rayonunun təbii sərvətləri də talan olunub. Ermənilər meşələrdəki ağacları vəhşicəsinə qırıb, yaxud yandıraraq məhv ediblər. Cəbrayıl şəhərinin yaxınlığındakı Orta əsrlərə aid qəbiristanlıq da ermənilər tərəfindən yerlə-yeksan edilib. Qiymətli qəbir daşları talan edilərək aparılıb, qəbirlər qazılaraq çıxarılıb, insan sümükləri ətrafa səpələnib. Ermənilər qəbiristanlıqları dağıtmaqla tarixi keçmişimizi, mənəvi yaddaşımızı silmək istəyiblər. Lakin insanlığa sığmayan bu əməlləri ilə əsl xislətlərini, barbarlıqlarını bir daha nümayiş etdirmiş olublar. Erməni vəhşiliyini gördükdən sonra bu qənaətə gəlirsən ki, bəşəriyyət, xüsusilə də özlərini dünyanın aparıcı dövlətləri və liderləri kimi təqdim edənlər insanlıq hissini itiriblər. Çünki susurlar, danışmırlar, ermənilərin bir toplum olaraq yer üzündən silinməsi üçün təsirli tədbirlər görmürlər. Bu da ona dəlalət edir ki, bəzi aparıcı dövlətlər erməni terrorunun yaşamasında maraqlıdırlar. Elə ulu əcdadlarımız da ermənilərin bir toplum kimi mövcudluğunun saxlanmasında az günahkar deyillər. Ən az ulu sərkərdələrimiz, böyük fatehlərimiz ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinin qarşısını ala bilərdilər. Bu baxımdan bugünkü nəsil Teymurləngi, Şah İsmayıl Xətaini, Nadir Şahı və digər sərkərdələri qınayırıq, erməni toplumunun kötüyünü vaxtında kəsəydilər, bu gün bizlər onların terrorunun qurbanı olub, əziyyət çəkməzdik. Etinasızlıq göstərilməsindən bəhrələnən ermənilər böyük güclərin hərbi, siyasi dəstəyinə arxalanmaqla Cənubi Qafqazda yerləşdilər. Möhkəmləndikdən sonra isə azərbaycanlılara qarşı qətliamlar həyata keçirdilər, evləri dağıtdılar, şəhərləri, kəndləri viran etdilər. Nəticədə son iki yüz il ərzində 2 milyon azərbaycanlı erməni vəhşiliyinin qurbanı oldu, İrəvanı özününküləşdirdilər, Qafanı, Görusu, Dərələyəzi və digər onlarla yaşayış məskənimizi işğal etdilər.



## Ermənisiz Qafqaz sabitlik adası ola bilər

Erməni daşnak millətçilərinin "böyük Ermənistan" ideyasını həyata keçirmələri ilə bağlı təbliğatları Qafqaz bölgəsini milli qırğınlara gətirib çıxarmışdır. 1905-1906-cı illərdə Bakıda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Gəncədə və Cənubi Azərbaycanda bu qırğınlar davam etmişdir. Erməni daşnaq quldur dəstələri 1905-ci il noyabrın 28-də Qarabağ bölgəsinin şəhər və kəndlərini yandıraraq, uşaqlara, qadınlara və qocalara qarşı görünməmiş vəhşiliklər törətmişlər.Erməni quldur dəstələri yalnız Şuşa,Cavanşir və Cəbrayıl qəzalarında 75-ə qədər Azərbaycan kəndini, İrəvan və Zəngəzur quberniyalarında isə 200-dən çox yaşayış məntəqəsini dağıtmış əhalini vəhşicəsinə qətlə yetirmişlər.Erməni terrorçuları hələ 1904-cü ilin sentyabrında Bakı şəhərində bir neçə azərbaycanlını qətlə yetirmişlər. Bu qətllər isə ermənilər tərəfindən xəbərdarlıq xarakteri daşımışdır. 1905-ci il fevralın 5-də erməni terrorçu dəstələri Bakı qəzası Sabunçu kəndinin sakini Ağarza Babayevi öldürmüşlər. Qətl ixtişaş yaratmaq məqsədilə törədilmişdir. Elə həmin gün erməni quldur dəstələri realnı və texniki məktəblərin 7-ci sinif şagirdləri Yakov Lebedivi və İvan Volkovu öldürmüşlər. Erməni alimi C. Libardyanın yazdığına görə üç il ərzində (1904-1906-cı illər) erməni terrorçuları 105 "siyasi qətl" törətmişlər. Bunların 56-sı ermənilərə qarşı, 32-si siyasi bəhanələrlə həm ruslara, həm də türk məmurlarına və zabitlərinə qarşı, 2-3-ü təsadüfən heç bir səbəb olmadan, qalanları isə bankirlərə və sələmçilərə qarşı olmuşdur. Alimlər Libardiyanın göstərdiyi rəqəmləri araşdıraraq yazmışlar: "... Bu qısa üç illik dövrdə erməni terrorçuları tərəfindən öldürülmüş, erməni mənşəli hər iki adamla yanaşı bir qeyri-erməni mənşəli şəxsdə öldürülmüşdür. Məqsəd dəyişməyibdir: dinc ermənilərin böyük əksəriyyətini qəsdən qorxutmaq, onları terrorçuların fəaliyyətini təsviq etmək məcburiyyətində qoymaq".1905-ci ilin fevralın 6-da Bakıda Mixaylov xəstəxanasının sənədlərinə görə erməni milyonçuları Balabek Lalayevin, Artyom Babayantsın, İsay Ter Osipovun və başqa maqnatların havadarlığı sayəsində terror qrupu 18 adamı öldürmüş və 33 nəfəri yaralamışdır. Onların 34-ü azərbaycanlı, 6-sı rus, 6-sı erməni, 5-i isə başqa millətin nümayəndələridir. 1905-ci ilin fevralın 7-də erməni terror təşkilatı Bakıda 100-dək dinc vətəndaşımızı öldürmüş və yaralamışdır. Erməni quldur dəstələri 1905-ci ilin fevralın 9-da Bakı sakinlərini qətl və qarətlərə məruz qoymuşdular. Erməni dəstələri kütləvi qırğınlar törətdikdən sonra varlı ermənilərin (Balabek, Lalayev, Artyom Babayants, Akop Muradyan, Karen Saakyants və b.) evlərinə yığışmış, onların pəncərələrindən və damlarından şəhərin küçələrinə atəş açmış,ingilis, fransız istehsalı olan bombalar, qumbaralar atmışlar. 1905-ci ilin qırğınları tarixə "Bakı şəhərində qanlı qətliqən" kimi düşmüşdür. "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının idarə etdiyi quldur dəstələri 1905-ci ilin 20-21 fevralında İrəvan şəhərinin müsəlman sakinlərinə qarşı insanlığa yaraşmayan hərəkətlər edərək qırğınlar, vəhşiliklər etmişlər. Dinc əhalinin vəhşicəsinə öldürülməsi bu amansız hadisənin şahidlərini dəhşətə gətirmişdir. Ümummilli Liderimiz Heydər Əliyev bu hadisələrə belə qiymət vermişdir: "Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılar. Böyük humanist ideallara xidmət edən Azərbaycan Ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradır". 1905-ci il mayın 11-də Bakı şəhərində erməni terrorçuları Qafqaz xalqları arasında dostluq əlaqələri ruhunda çıxış edən knyaz M.A. Nakaşidzeni və Q. Takiyeskilini qətlə yetirdilər. Bu hadisəni şahid R.R. Subinski öz xatirələrində göstərmişdir. O dövrün məlumatlarına əsasən qatillərdən biri Dro ləqəbli Drastamat Xanayan idi. Bu hadisələrdən əvvəl Dro Zəngəzur mahalında erməni quldur dəstələrinin tərkibində dinc azərbaycanlılara qarşı qanlı qırğınlarda yaxından iştirak etmişdi. Erməni daşnak quldarları 1905-ci ilin mayın 24-də İrəvan quberniyasında dinc azərbaycanlılara atəş açdılar. Qarışılıqdan istifadə erməni saqqallıları on bir vətəndaş-dörd qadın, iki uşaq və beş kişini qətlə yetirdilər. Bu qanlı hadisələrdən doymayan erməni quldur dəstələri 1905-ci ilin mayında Naxçıvan torpağına hücum edərək dinc əhaliyə qarşı qanlı divan törətdilər. Çoxlu sayda qadın, qoca və uşağı öldürdülər. Ermənilər 1905-ci ildə Zəngəzur bölgəsində də onlarca adam öldürülmüş, evlərə od vuraraq yandırmışlar.

## Bəşəriyyət daim erməni terrorundan əziyyət çəkib

Xaricdən aldıqları hərbi silahsursatdan yaralanan erməni quldur dəstələri 1905-ci ilin 2 iyununda Mənkus müsəlman kəndinə hücum etmişlər. Silahsız kəndlilər ailələrini götürüb qaçmağa məcbur olmuşlar. Kənddə qoca və əlil olan 80 yaşlı bir sakin erməni quldurlarının əlinə keçmişdir. Erməni quldurları şişləri qızdıraraq işgəncələr verməklə onu öldürmüşlər. Bu vəhşiliklərini ermənilər 1988-1989-cu illərdə Ermənistan torpaqlarından qovulan azərbaycanlılar üzərində də həyata keçirmişdilər. Erməni daşnak dəstələri 1905-ci il iyunun 8-də İrəvan yaxınlığındakı Eçmiədzin qəzasındakı Uşu azərbaycanlı kəndini mühasirəyə almış, buranı işğal etdikdən sonra kişilərin başlarını kəsmiş, südəmər uşaqları süngülərə keçirmişlər. Bu basqın zamanı kəndin məscidi yandırılmışdır. Ermənilər səhərisi Eçmiədzin qəzasındakı Persi, Nazzevan, Kiçik kənd, Kötüklü, Qoşabulaq və İrgu azərbaycanlı kəndlərini də yandırmış, məscidlərə od vurmuş və insanlığa yaraşmayan hərəkətlər edərək murdarlamışlar. Erməni daşnak dəstələri öz çirkin əməllərindən əl çəkməyərək 1905 -ci ilin avqustun sonlarına yaxın Bakı əhalisinə qarşı dəhşətli qırğınlar törətdilər. 1905-ci ilin avqustun 8-də 300-dən çox erməni daşnakı Şuşa qəzasının Vənd kəndinin karvan dəstələrinə hücum etdilər. Çoxlu tacir öldürüldü, əmlakçıları talan edildi. Kəndin sakini Abbas bəyin oğlunu, qardaşını və bir neçə nökər-naibini qətlə yetirdilər. Onların törətdikləri qanlı qırğınlarının məqsədi və yerli əhalini Şuşanı və Qarabağın dağlıq hissəsinin digər ərazilərini tərk etməyə məcbur etmək idi. Ermənilərin piyada və süvari dəstələri 1905-ci il oktyabrın 3-də Azərbaycanın Sırxavənd müsəlman kəndinə hücum təşkil etdilər. Bu zaman kənd əhalisi tamamilə öldürüldü, kənd isə yandırıldı. Bütün bu faktlar bir daha onu təsdiq edir ki, erməni vəhşiliyi dünya üçün təhlükə mənbəyidir. Baxmayaraq ki, bəzi ölkələr, xüsusilə də Fransa, Hindistan, ABŞ, fars-molla rejimi, Yunanıstan və digər ölkələr ermənilərə himayədarlıq edir onlara hərbi, siyasi, maliyyə dəstəyi göstərirlər. Bu isə daha təhlükəlidir. Çünki hərbi dəstəkdən ruhlanan erməni terror dəstələri daha geniş ərazilərdə, daha çox insan qanını tökmək üçün terror fəaliyyətlərini bir qədər də artıra bilərlər.

***İLHAM ƏLİYEV***

# Ailənin böyüyü kimdir?





***Qadınlara baxış, qadınların üzərinə qoyulan vəzifə və öhdəliklər, habelə məsuliyyətlər zamanla dəyişib. Lakin dəyişikliklərə baxmayaraq, qadınlar hələ də məhdudiyyətlərə rast gələ bilirlər, sosial həyatda çətinlik yaşaya bilirlər. Qadınların sosial həyatda aktiv fəaliyyətdə olduğu cəmiyyətlər də var, qadağalarla üzləşdiyi cəmiyyətlər də.***

Ölkəmizdə həm cəmiyyətdə, həm ailədə qadınların kişilərlə eyni nisbətdə qərar qəbuletmə prosesində iştirakının maneələrlə qarşılaşdığı vəziyyətlər də var. Bu maneələrin bəziləri sosial, bəziləri isə mədəni xarakter daşıyır. Ailə institutunda qadınların qərar qəbuletmə prosesində iştirakı bilavasitə ailədəki patriarxal quruluşun ölçüləri və qadınların statusu ilə bağlıdır.

Sosioloqlar deyir ki, ailə kiçik bir dövlətdir və o dövlətin daxilində münaqişə də olur, sülh də. Ailənin böyüyü yaş anlayışını ifadə etmir və ola bilər ki, ailədə yaşca kiçik olan birinin fikirləri yaşı çox olanın fikirlərindən daha çox ağılabatan və obyektiv olsun. Kişilər adətən ailədə son sözü deməyə adət etdikləri üçün qadının yekun qərar qəbul etməsinə normal baxmırlar. Düzdü, qadına söz haqqı verilir, amma el arasında bir söz var, "xətrin qalmasın" deyə fikrini də soruşurlar. Lakin nəticə yenə də kişinin istədiyi formada olur.

Bizim cəmiyyətdə qadın olmağın üstünlükləri də var, çatışmazlığı da. Müsəlman ölkələrinin çoxunda olan qadın-kişi bərabərliyi problemi, gender məsələsi bizdə o qədər də qabarıq deyil. Azərbaycanın dünyəvi dövlət olması bu məsələdə böyük rol oynayır. Qadınların ailədə söz haqqına sahib olması məsələsi həmişə gündəmdə olan və çox müzakirə edilən mövzudur. Düzdür, bizim cəmiyyətdə də çatışmazlıq çoxdur, amma qadınların ailədə söz haqqına sahib olması və fikirlərinin önəmsənildiyini də bilirik.

Amma bir çox ailədə olan böyük və ya kiçik məsələlər çox vaxt cəmiyyətin gözündən uzaq baş verir. Qadının ailədəki statusu çox vaxt ətrafının xəbərdar olmadığı məsələdir. Kənardan baxınca hər şeyin qaydasında olduğunu düşünənlər sonra ailənin problemlərinə şahid olurlar. Ailədə alınan vacib qərarlarda söz haqqına sahib olan qadınlar da var, bir cümlə deməyə ixtiyarı olmayanlar da. Hətta söz haqqı istədiyi görə zorakılığa məruz qalanlar da var. Bəzi ailələrdə hələ də "qadının yeri mətbəxdir" düşüncəsi hakimdir.

Qələminə hörmət etdiyim yazarlardan birindən bu məsələni soruşdum, xanımına ailədə söz haqqı verdiyini söylədi, amma heç vaxt onun sözlərini ciddiyə almadığını da dedi. "Onun söylədiyi ümumi vəziyyətin xeyrinə olsa belə?" deyə soruşdum, "öz qərarımın səhv olduğunu bilsəm də, onun qərarı ilə oturub durmaram" dedi. "Səbəb?" deyə soruşdum, "qadının ağlı ilə oturub-durmaq zəiflikdir" dedi.

Bu cür düşünən kişilərimiz çox deyil, amma az da deyillər. Bir yazarın,ziyalının bu cür düşünməsi də ayrı bir problemdir. Əksər kişilərə görə, ailənin bir "rəisi" var, o da kişidir. Cəmiyyətdə ümumi bir rəy formalaşır ki, qadın yalnız biş-düşlə, uşağın tərbiyəsi ilə, evin səliqə-səhmanı ilə məşğul olmalıdır, qərarlar isə kişilərin öhdəsindədir.

Düzdür, feministlərin sayı artdıqca cəmiyyətin baxış bucağı da dəyişir. İndi qadınlar özlərinin tək ailədə yox, cəmiyyətdə önəmli statusa malik olduğunu sübut edirlər. İndi qərarlar birlikdə alınır, amma çox kişi buna yenə etiraz edir və beləcə boşanma yoluna qədəm qoyulur. Burda düşünməmək olmur, bəlkə elə söz sahibi olan qadınların ilk addımı boşanmaq olur?

Bir çox hallarda ailədə qadının fikri ona görə əhəmiyyətsiz hesab edilir ki, həyat yoldaşından yaşda kiçik olur. Ola bilər qadın ərindən 5-10 yaş kiçik olsun, amma problem olanda daha ağlabatan fikir irəli sürsün. Ola bilsin əksinə. Əsas olan verilən qərarın ailənin birliyinə xidmət etməsidir. Fərq etməz, qadın ya kişi. Onlar ayrılıqda yarımçıqdırlar və yalnız birlikdə bir ailəni qura bilərlər. Bunu anlayan bütün cütlüklər ailədə söz birliyi, əməli birlik nümayiş etdirirlər. Qısa desək, ailənin böyüyü ikiliyin yaratdığı birlikdir və bu birlik ikiliyə ayrıldıqda ailədə həll edilməsi çətin olan psilxoloji problemlər yaranır.

Ailənin, dolayısı ilə bütün ailə fərdlərinin xoşbəxtliyini təmin etmək, sədaqətli olmaq, bir yerdə yaşamaq, həmrəy olmaq, ortaq büdcəyə sahib olmaq bir ailənin təməlində ən vacib addımlardandır.

Ailə bir institutdur, ər-arvadın birliyi bir məqsədə xidmət etməlidir - ailənin bütövlüyünə və xoşbəxtliyini birgə təmin etməyə. Onlar ata və ana olaraq uşaqlara qayğı, təhsil və nəzarəti birlikdə həyata keçirməyə borcludurlar. Həyat yoldaşları hər hansı bir məsələdə fərqli düşünə bilərlər, amma haqqın yolu bir olduğuna görə o düşüncələrin də ortaq məxrəci olur, ailə üçün ən yaxşı qərar nədirsə, o qəbul edilir. İki qoçun döyüşməsindən nə ailəyə, nə də cəmiyyətə fayda olmaz.

***Lalə Mehralı***



# Rəqəmsal və ənənəvi təhsil - ƏTRAFLI MÜQAYİSƏ

## *EKSPERT DETALLARI AÇIQLADI*

Texnologiyanın sürətlə inkişaf etdiyi müasir dövrdə, rəqəmsal platformalar təhsilin ənənəvi metodlarına yeni alternativlər təklif edir. Xüsusilə onlayn təhsil, hər kəsə fərqli yerlərdən və zaman çərçivəsində bilik əldə etmək imkanı yaradır.

Mövzu barədə təhsil eksperti Əmrah Həsənli SİA-ya açıqlamasında deyib: "Onlayn təhsilin bir neçə vacib üstünlüyü vardır ki, bu artıq əlçətanlıqdır. Onlayn təhsil tələbələrə coğrafi mühit məhdudiyyətlərindən asılı olmayaraq təhsil almaq imkanı verir. Bu xüsusiyyət əsasəndə kənd və uzaq bölgələrdə yaşayan şagirdlər üçün də əsas məqamlardan biridir. Fərdi təhsil, onlayn təhsil özünü inkişafetmə bacarıqlarını inkişaf etdirir. Hər bir tələbələrin fərdi tələblərinə uyğun tədris üsullarını təklif edir. Resurslar onlayn təhsil, video dərslər, multimedialı materiallar, onlayn kitabxanalardır ki burada ənənəvi təhsilde olmayan imkanlardan biridir.



Onlayn təhsil zamanı tələbələr əsas texniki tərəfdən çətinliklə üzləşir, yəni internet əlaqəsi, platformalar düzgün işləməyəndə yaxud texniki avadanlıq olmayanda tələbələrin onlayn təhsildə çətinlik çəkməsinə gətirib çıxarır. Həmçinin burada onu da vurğulayaq ki onlayn təhsildə tələbələrdən yüksək dərəcədə özünütənzimləmə, motivasiya bacarıqları gözlüyürük ki, əksər tələbələr dərslərə diqqət ayırmaqda çətinlik çəkir və bu da əsas məqamlardan biridir.

Onlayn təhsildə ən çox istifadə edilən platformalar Azərbaycan daxil olmaqla "Zoom", "Microsoft Teams" proqramlarıdır ki, bunlar dərslərdə, onlayn görüşlər üçün əsas öyrənmə metodlarından biridir. İnternetə çıxışı olmayan tələbələr üçün onlayn dərs materialları götürə bilər ki, burada elektron dərsliklərdi, çap olunmuş tədris materialları aid edirik. Əlavə olaraq düzdü tam uyğun olmasa da "hybrid" təhsil sistemini götürə bilərik, yəni ənənəvi təhsil metodlarını və üsullarından onlayn dərsləri birləşdirən bir məhfumdur ki şagirdlərin daha dərsə qoşulmasını asanlaşdıra, müəyyən qədər təsir göstərə bilər. Biz həmişə rəqəmsal təhsilin keyfiyyətini artırmaq, yəni rəqəmsal təhsil və onlayn tədrisdən danışırıqsa artıq süni intellekt ortaya girəcək ki, bu da tələbələrin fərdi inkişafını izləməkdi, onların müvəffəqiyyətlərini proqnozlaşdırmaqdı. Birdə mən bir təlimdə də bunu eşitmişdim ki, blotexnologiyalar deyilən bir anlayış vardır ki blo əsaslı platforma, tədris materialları, resursları, dərsdə olan tapşırıqları mütəmadi olaraq tələbələrə təqdim etməyə imkan verir".

Ekspert əlavə edib ki, rəqəmsal təhsil sistemi ənənəvi təhsil sistemini tamamilə əvəz edə bilməz: "Bu mənim subyektiv fikrimdi, inanmıram, çünki onlayn təhsil nə qədər üstünlüklərə malik olsada ənənəvi təhsil sistemi tələbələrin sosial bacarıqlarını, üzbəüz tədris var, laboratoriya işləri varki bunları təmin etmək üçün də ənənəvi təhsildə olacaq. Qeyd edim ki, onlayn təhsil ənənəvi təhsilin tamamlayıcı bir vasitə kimi istifadə edilməsi daha məqsədə uyğun ola bilər. Bugünki gündə virtual reallıq və süni intellekt tabii ki onlayn təhsilə öz təsirini göstərir. Biz virtual reallıqdan danışsaq tələbələr real dünya vəziyyətlərini virtual mühitdə təcrübə edə bilirlər, süni intellektlə getsək tədris sürətinə uyğun daha tez dərs planlarını hazırlamaq, onların bayaqda süni intellektdən danışanda analiz etməyə imkan verməlidir ki tələbələrə bunların hamısı, onlayn təhsilə təsir edən amillərdir.

Rəqəmsal dərslərin planlaşdırılması zamanı əsas aspektlər əlçatanlıq olmalıdır, müxtəlif cihazlarda və platformalarda dərsə qoşulma imkanı mütləq şəkildə təmin olunmalıdır. Tələbələrə hər hansı texniki cəhətdən çətinlik yarananda onların köməyinə çata bilən bir mexanizm olmalıdır.

Müəllimlərin rəqəmsal savadlılığını artırmaq üçün mütləq şəkildə onlayn təhsil texnologiyaları, onların alətlərini öyrənən təlim və seminarlar təşkil olunmalıdır. Həmçinin müəllim üçün texniki dəstək məsləhət mərkəzləri xidmət kimi onlara təqdim oluna bilər, eyni zamanda müəllimlər burada öz təcrübələrini paylaşmaq və yeni metodlarını müzakirə etmək üçün yeni onlayn platformalardan istifadə edə bilər. Onlayn təhsilin sosiallaşmağa təsiri çox ciddidir. Xüsusən də gənc yaş qruplarında tələbələrin, təhsil alanların sosial əlaqələrin məhdudlaşmasına gətirib çıxarır.

***Xeyrənsə Piriyeva***

# Tanrıya açıq məktub - 7-ci hissə

(fəlsəfi esse)

Əbədi döyüş meydanında orduların nəzərdən keçirilməsi

əvvəli ötən saylarımızda

Şöhrətli və Qüdrətli Tanrım. Qeyri-rəsmi məlumatlara görə, hazırda Yer planetində Sənin və Şeytanın tərəfdarlarının say nisbəti təxminən 20/80 civarındadır. Indi bizim (20 faizin) Səndən yalnız bir xahişimiz var- Şeytana uduzulmuş bəşəriyyəti onun əlindən al. Bir az da geciksən, həmin 20 faiz də tamamilə məhv ediləcək. Düzdü, bu məğlubiyyətdə günahın çoxu bizim üzərimizdədir, amma Sən İlahi Baş Məşqçi kimi "komandanın" başında durduğundan bu ilahi məğlubiyyət də əsasən Sənin Adına yazılacaq. Yenə Özün bilən məsləhətdi. Biz nə karəyik ki?...

Səbrli Tanrım, hazırda Sənin və bizim planetimizdə dəhşətli döyüş gedir. Zərduşt Peyğəmbər düz deyirmiş- dünya binə olandan Xeyirlə şərin, Yaxşılıqla yamanlığın, Mərdliklə namərdliyin davası başlayıb. Bu savaş daha da qızışmaqda və Xeyir tərəf uduzmaqdadır.

## Üz-üzə dayanmış iki ordu...

Bir tərəfdə Mənəviyyat- bir tərəfdə mənəviyyatsızlıq, bir tərəfdə Şərəf-Ləyaqət- bir tərəfdə şərəfsizlik və ləyaqətsizlik, bir tərəfdə Sevgi- bir tərəfdə nifrət, bir tərəfdə Haqq- bir tərəfdə haqsızlıq, bir tərəfdə Ədalət- bir tərəfdə ədalətsizlik, bir tərəfdə Mərdlik- bir tərəfdə namərdlik, bir tərəfdə Yaxşılıq- bir tərəfdə pislik, və nəhayət bir tərəfdə Sənin fədailərin- qarşı tərəfdə Şeytanın əsgərləri...




Siyahını sonsuzadək uzatmaq olar, amma artıq Sən də yorulubsan mən də... Gəl qurtaraq bu söhbəti. Bizə nə lazımdır? Heç nə və heç kim, Səndən başqa. Sənə nə lazımdır? Inam və Sevgi? Razıyıq!!! İnanmırsan daha bir Kitab, daha bir Elçi göndər və son dəfə yoxla! Bu dəfə də alınmasa, onda başla Qiyamət gününü! Qoy hər bir kəs cavab versin! Etdiklərinə və etmədiklərinə görə! Qoy hər bir kəs rəzil olsun, günahları qarşısında! Qoy hər bir kəs qürur duysun, savabları qarşısında. Sonrasa qoy hər kəs Sussun, Özün danış bəşəriyyət qarşısında! Dünya dağılsa belə, qoy ədalət zəfər çalsın!

Sonra dağıt bu lənətə gəlmiş dünyanı, məhv et bu şeytana uymuş bəşəriyyəti. Ki, yenidən yaradasan! Bu dəfə daha gözəl, daha yüksək, daha möhtəşəm və Şeytansız!!! Yeni Dünyanın adı da qoy Gözəllik, Yeni İnsanın adı da qoy Sevgi olsun! Qəlblərində böyük və qırmızı hərflərlə Tanri yazılsın! Köhnə hər şeyi sil alt yaddaşından Yeni İnsanın!

Bir xatirə saxla yalnız- Qiyamət tarixini! Qoy ilahi sevgi və ilahi qorxu nümunəsi qalsın gen yaddaşında! Qoy bu tarix böyük sevginin böyük təntənəsi kimi əbədi yaşasın! Dünyanın mərkəzində də başı göylərə dirənən möhtəşəm bir İlahi Sevgi Məbədi ucalsın- Sənin Adın yazılsın üzərində!

Qoy bu dünyada torpaq və sərvət uğrunda savaş meydanlarına tökülən qan əvəzinə, çiçək tökülsün Sevgi Məbədi qarşısına, ədavət əvəzinə Sevgi yaransın qəlblərdə, şər əvəzinə Xeyir deyilsin dillərdə, haqsızlıq əvəzinə Haqq görünsün əməllərdə! Yalnız o zaman Ulu Zərdüştün "Xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl" prinsipi qalib gələcək Yer üzündə! Biz bunu istəyirik Səndən, Sən də istə bizdən nə istərsən...

Uca Tanrım, bu məktubu Sənə tapınanlar adından, amma onlardan xəbərsiz yazdım! Bağışla və keç günahımdan Ey İlahi sevginin, təkrarolunmaz gözəlliyin və mütləq həqiqətin son aspekti. Ey məsumların yeganə sığınacağı, əbədi ruhi dünyaya böyük Tanrı sevgisi ilə apar bizi. Bu yeganə arzum və istəyimdir Səndən- insanların günahını Adamlara bağışla Mərhəmətli Yaradan.

Bu yazının adı əslində "Unudulmuş və Uduzulmuş Tanrı" qoyulmalıydı. Bu da mənim səhvimdir, çünki Sən bizi yox, əslində biz Səni unutmuş və uduzmuşuq! Amma Sənin bizə bəxş etdiyin bir keyfiyyət də var- Umid. Umid sonda ölur- deyirlər. Bu Umid ki ölməyib, deməli Son da hələ gəlməyib. Hələ də gec deyil! Hələ bütün körpülər yandırılmayıb, son körpüyə- Ümid körpüsünə yol açıqmış. Təkcə buna görə yaşamağa dəyər...

Qeyd: Sənə səsimi "Səs" qəzeti vasitəsilə çatdırmaq istədim. Ümid edirəm ki, Sənə çatar, yoxsa qulaqlara qurğuşun, Sənin yanında da bir-iki bürokrat məmur olsa, onda vay bu məktubun halına. (Bu da bir zarafat idi, bunca ağır faciələrin yazıldığı məktubun sonundakı sonuncu səhv olaraq.) Öz günahkar fədaini sonadək ilahi səbrlə dinlədiyin üçün sonsuz təşəkkürlər Uca Tanrım!

S O N

Əbədi sevgi və sonsuz ehtiramla günahkar bəndən

***Elcin Bayramlı***

# 2025-ci ildə nələr BAŞ VERƏCƏK?



ASTROLOQ AÇIQLADI



"Ənənəmizə uyğun olaraq yenə də 25 ictimai-siyasi proqnozlarla qarşınızdayıq". Bu sözləri SİA-ya açıqlamasında astroloq Səbuhi Rəhimli deyib. O, həmin proqnozları təqdim edib:

**1)** İlk 3 ayda devalvasiya olmasa ilin qalan vaxtlarında bu baş verməyəcək.

**2)** Fevraldan etibarən ölkəmizdə siyasi aktivlik başlayacaq.

**3)** Varlanmaq, yəni böyük mənsəb uğrunda məmuriyyətimiz arasında inhisarçılıq və daha çox sərvət toplamaq uğrunda böyük rəqabət, ölüm-dirim savaşı olacaq.

**4)** Ermənistan-Azərbaycan arasında müharibə olmayacaq. Belə tez-tez deyirlər, hətta cənab Prezidentin Yeni İl çıxışında da deyildi ki, çoxlu silah alırlar. Biz də ona qarşılıq alırıq. Amma söhbət 2025-dən gedir.

**5)** Ermənistanla Azərbaycan arasında hər hansı müharibə olmayacaq.

**6)** Neçə dəfə hesabladım, Zəngəzur dəhlizinin açılması nəticədə göstərmədi. Ona görə də 2025-ci ildə belə bir qənaət sərgiləyək ki, Zəngəzur dəhlizi açılmayacaq. Amma sülh müqaviləsinin ilin 2-ci yarısında ehtimalı çox böyükdür. Sülh müqaviləsi ilin 1-ci yarısında alınmayacaq.

**7)** Mart-İyun aralığı Azərbaycan hakimiyyəti üçün çətin bir dönəm olacaq. Martdan oyuna qədər hazırkı iqtidarı sınaqlar, çətinliklər gözləyir.

**8)** Həbsdə olan media nümayəndələrinin əksəriyyəti azadlığa buraxılacaq.

**9)** Ölkəmizdə bahalaşma qaçılmaz olacaq. Dollarla bağlı bir proqnozumuz da odur ki, devalvasiyanın ilk 3 ayda ehtimalı böyükdür, sonrakı müddətdə yoxdur.

**10)** Azərbaycanla Rusiya arasında gərginlik aradan qalxacaq. Ola bilər ki, hətta yanvarın sonlarında bu baş versin. Hazırkı təyyarə qəzası ilə bağlı gərginlik aradan qalxacaq.

**11)** İranla isə hələ davam edəcək. İranla bağlı gərginliklər hələ uzun sürəcək. Aprelə qədər qarşılıqlı ittihamlar filan var. Amma İranın Azərbaycana müdaxiləsi və s. bunlar olmayacaq. Azərbaycanla İran arasında hərbi qarşıdurma olmayacaq.

**12)** Dünya son 8 ilin ən böyük iqtisadi krizisini yaşayacaq.

**13)** İlin ilk yarısı İranda tarixi olaylar yaşanacaq.

**14)** Fevralın 18-nə qədər alınmasa, Gürcüstanda hakimiyyət dəyişməyəcək.

**15)** Nikol Paşinyan da hakimiyyətdə qalacaq.

**16)** İrana qarşı hər hansı müharibə aparılmayacaq.

**17)** Çinə qarşı hər hansı hərbi müdaxilə yoxdur.

**18)** Türkiyə və İsrail arasında gərginlik hərbi müstəviyə keçməyəcək.

**19)** Uzun illər sabit qalan Türkmənistanda daxili gərginlik ehtimalı var.

**20)** Rusiya-Ukrayna müharibəsi ilin ikinci yarısına keçməyəcək. Bitmə vaxtını demək çox çətindir.

**21)** Zelenskinin ən azı oktyabra qədər hakimiyyətdə qalması göstərilir.

**22)** 20-dən çox ölkədə hakimiyyətlər dəyişəcək.

**23)** İlin ilk rübü Putin üçün çox çətin keçəcək. Amma hakimiyyətdə də çatlar yaranacaq. Lakin hakimiyyətdən getmə ehtimalı Putində də yoxdur.

**24)** Suriyada elə bir qlobal müharibə yoxdur. Yəni, böyük müharibə olmayacaq.

**25)** 2025-də böyük insan itkisinə səbəb ola biləcək təbii fəlakətlər olmayacaq, yaxud minimuma enəcək.

***Ayşən Vəli***

# "Davamlı çirklənmə yalnız fərdi səviyyədə deyil..."

"Hava çirkliliyi müasir dövrdə əsas problemlərdən biridir və bu təkcə təbiətə deyil, həm də insan sağlamlığına ciddi təsir göstərir. Xüsusilə tənəffüs sistemi hava çirkliliyindən daha çox əziyyət çəkən orqanlardan biridir. Havada mövcud olan zəhərli maddələr nəfəs alarkən bizim ağciyərlərimizə daxil olaraq bir çox xəstəliklərə səbəb ola bilər. Hava çirkliliyi müxtəlif mənbələrdən yaranır. Bunlara avtomobil nəqliyyatı, sənaye fəaliyyəti, ev yanacaqları, toz fırtınaları və meşə yanğınları kimi təbii mənbələr daxildir". Bu sözləri SİA-ya açıqlamasında terapevt Günay Müsayeva deyib. Həmçinin o qeyd edib ki, hava çirkliliyinin tənəffüs sisteminə mənfi təsirləri özünü bir neçə formada büruzə verə bilər. "Birincisi kəskin təsirlərdir ki, hava çirkliliyinə məruz qalmaq tənəffüs yollarının qıcıqlanmasına səbəb olaraq öskürək, nəfəs darlığı, boğaz ağrısı kimi simptomlar müşahidə edilə bilər. Astma tutmaları artır və mövcud tənəffüs xəstəlikləri kəskinləşir.



İkincisi xronik təsirlərdir ki, davamlı hava çirkliliyinə məruz qalmaq xroniki, abstruktiv ağciyər xəstəliyi və ağciyər fibrozunun yaranmasına səbəb ola bilər. Uşaqlarda ağciyər inkişafının ləngiməsinə və ağır hallarda ağciyər xərçəngi riskini artıra bilər. Üçüncü isə immun sisteminə təsirdən ibarətdir ki, zərərli maddələr ağciyər toxumasını zədələyərək infeksiyalara qarşı müqaviməti zəiflədir və plemaniya, sətəlcəm kimi xəstəliklərə meyil artır. Hava çirkliliyindən ən çox təsirlənən qruplar uşaqlardır. Onların tənəffüs sistemi tam inkişaf etmədiyindən zərərli maddələrə qarşı daha həssasdırlar, həmçinin yaşlıların immunitet sistemi zəiflədiyi üçün və xronik xəstəliyi olanlar astma, xronik abstruktiv ağciyər xəstəliyi, ürək-damar problemləri olanlar risk altındadır. Gördüyümüz kimi hava çirkliliyi insan sağlamlığına xüsusilə tənəffüs sisteminə ciddi təhlükələr yaradır. Davamlı çirklənmə yalnız fərdi səviyyədə deyil, həm də cəmiyyətin ümumi sağlamlıq vəziyyətinə təsir göstərir. Təmiz havanı qorumaq üçün fərdi və ictimai səviyyədə tədbirlər görmək vacibdir."

***Xeyrənsə Piriyeva***

# Azərbaycanda və dünyada QIŞ TURİZMİ

***Qış təkcə hamımızın evdə qalaraq yorğan altında film izlədiyimiz günlər deyil. Yay həvəskarları bu mövsüm haqqında tez-tez belə düşünsələr də, əslində qışda edilə biləcək çoxlu əyləncəli fəaliyyətlər var. Soyuq qış günlərini həm şən, həm də sağlam qış idmanları ilə fürsətə çevirə və düşündüyünüzdən daha maraqlı vaxt keçirə bilərsiniz.***

## Bəs, dünyada və ölkəmizdə qış fəslində haralara gedə, nələr edə bilərik?

*Türkiyədən və dünyanın ən yaxşı qış idman yerləri*



**1. Bursa- Uludağ**

*Uludağ*

Uludağ Xizək Mərkəzi Türkiyənin ən qədim və ən böyük xizək kurortlarından biridir. Dekabr ayında qarın qalınlığının 3 metrə çatdığı bölgədə hər büdcəyə uyğun obyektlərə rast gəlmək mümkündür. Qış idman növləri üçün Uludağı seçən ziyarətçilər xizəklə yanaşı, snoubord, böyük ayaq, buz konkisi və qar motosikleti kimi idman növləri ilə də məşğul ola bilərlər. Burada xizək turu kimi seçimlər də var.

**2. Bolu- Kartalkaya**



ARAŞDIRMA



*Kartalkaya*

Bolu-Kartalkaya qar keyfiyyətinə görə ən yaxşı xizək kurortlarından birinə malikdir. Bölgədə xizək sürmək üçün əlverişli zonaların uzunluğu 1850 metr ilə 2200 metr arasındadır. Obyektdə həmçinin 2 kreslo, 6 teleski və 3 uşaq meydançası var.

**3. Ərzurum- Palandöken**

Türkiyənin ən böyük xizək kurortu olan Palandöken dünyanın ikinci ən uzun və ən dik xizək enişinə malikdir. Bundan əlavə şəhər mərkəzindən cəmi 7 km məsafədə yerləşdiyi üçün bir çox xizək kurortlarından daha üstündür. Bu xüsusi mərkəz bütün bu xüsusiyyətləri ilə tez-tez beynəlxalq təşkilatlara ev sahibliyi edir.

**4. Kayseri- Erciyes**

Türkiyədə qış turizmi dedikdə ilk ağla gələn yerlərdən biri olan Erciyesdə 3917 metrlik zirvədən 10%-dən 50%-ə qədər yamaclı yollarda xizək sürə bilərsiniz. Heliski və skipass kimi qış idman növlərinə bölgədə çox üstünlük verilir.

**5. Kocaeli-Kartepe**

İstanbula yaxınlığına görə qış idman növləri üçün tez-tez seçilən Kartepe, bənzərsiz təbiəti, yolları, müasir kanat yolları və telesiyej sistemləri ilə diqqət çəkir. Süni qar sistemlərinin də yer aldığı mərkəz İstanbula yaxın bir qış tətili axtaranlar üçün son dərəcə uyğun bir yerdir.

**6. Bansko-Bolqarıstan**

*Bansko*





Türkiyədə qış idman destinasyonlarından sonra dünyadakı bölgələrdən danışaq, Bolqarıstanın əhəmiyyətli xizək kurortlarından biri olan Bansko ölkəmizə yaxınlığı ilə seçilir. Rayonda 75 km uzunluğunda, baxımlı yollar var. Üstəlik, nəqliyyat olduqca asandır və digər xaricdəki seçimlərlə müqayisədə çox aşağı büdcəli tətil variantları təklif edir

**7. Hintertux - Avstriya**

Avstriyadakı Hintertux buzlaqı il boyu qarla örtüldüyü üçün bütün fəsillərdə xizək sürmək üçün rahatlıqla seçilə bilər. Bundan əlavə, xüsusiyyətlərinə görə dünyada ən çox seçilən iki və ya üç mərkəzdən biri olaraq görülür.

**8. Les 3 Vallees, Fransa**

Courchevel, Meribel və Belleville kimi əhəmiyyətli xizək kurortlarını birləşdirən Three Valleys 600 km uzunluğunda pisti ilə dünyanın ən böyük xizək kurortlarından biridir. Bölgəyə dünyadan yüksək təbəqələr üstünlük versə də, müxtəlif büdcələr üçün seçimlər də mövcuddur.

**9. Les 4 Vallees, İsveçrə**

Fransanın Üç Vadisi kimi, İsveçrənin Dörd Vadisi də Verbier, la Tzoumaz, Nendaz, Veysonnaz və Thyon xizək kurortlarını birləşdirir. Region iddialı trekləri ilə dünyanın ən əhəmiyyətli sürət yarış mərkəzlərindən biridir. Bu səbəbdən, xüsusilə yüksək səviyyəli xizəkçilər tərəfindən seçilir.

## BƏS, AZƏRBAYCAN?

Son illərdə Azərbaycana gələn turistlərin sayında artım müşahidə olunur. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2023-cü ildə respublikamıza dünyanın 187 ölkəsindən 2085,8 min və ya əvvəlki illə müqayisədə 30,2 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir.

Respublikamızın müxtəlif bölgələrində turizmin fərqli növləri, (sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi) inkişaf edib. Ölkəmizdə üç qış turizm mərkəzi fəaliyyət göstərir. Bunlar Qəbələdə yerləşən ”Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksi, Qusarda ”Şahdağ” Qış-Yay Turizm Kompleksi və Naxçıvanda Şahbuz rayonundakı ”Ağbulaq İstirahət Mərkəzi”dir.

*Ardı Səh. 12*

Əvvəli Səh. 11

# Azərbaycanda və dünyada QIŞ TURİZMİ

Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən və ilk dağ-xizək kurortu olan "Şahdağ" Qış-Yay Turizm Kompleksi oxşar istirahət mərkəzlərindən fərqlənir və ilboyu fəaliyyət göstərir. Həmçinin "Şahdağ" Qış-Yay Turizm Kompleksi və "Tufandağ" Dağ-Xizək Kompleksinə yerli və xarici ölkə, xüsusilə də Körfəz ölkələrinin vətəndaşları tərəfindən böyük maraq var. Dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdə yerləşən "Şahdağ" turizm kompleksinin ərazisi 2058 hektardır. "Şahdağ" Qış-Yay Turizm Kompleksinə daxil olan "Qaya" və "Zirvə" mehmanxanalarının istifadəyə verilməsi də turistlərin istirahətinə daha geniş imkanlar yaradır. Eləcə də Qusar və Qəbələdə yaradılan istirahət guşələri onu göstərir ki, Azərbaycan qış turizminin təşkili baxımından hər cür imkana malik ölkələrdəndir.













## 2023-cü il Şahdağ turu qiymətləri 1 nəfər üçün:

Ekonom paket 22 AZN
Standart paket 27 AZN
Full paket 35 AZN
Turun qiymətinə daxildir:
Səhər yeməyi standart vı full paketdə
Axşam yeməyi full paketdə
Nəqliyyat 20-50 nəfərlik
Peşəkar tur rəhbəri
Limitsiz çay
Musiqili əyləncə

Qeyd edək ki, bu qiymətlər 50 nəfərlik nəqliyyat üçün hazırlanıb və yalnız gediş-gəliş üçündür. Yəni, gecələmə yoxdur.

Şahdağ MACARA turu 1 nəfər üçün:
Həftə içi 2 gün 99AZN
Həftəsonu 2 gün 109 AZN
3 günlük 169 AZN

## Turun qiymətinə daxildir:

Səhər yeməyi
Nəqliyyat 20-50 nəfərlik
Peşəkar tur rəhbəri
SPA mərkəzdən istifadə
Uşaqlar üçlün qapalı hovuz
Ödənişsiz təqdim olunan bir sıra oyun və əyləncələr

## TUFANDAĞ TURU

Ekonom paket 22 AZN
Standart paket 27 AZN
Turun qiymətinə daxildir:
Səhər yeməyi (restoranda)
Transfer VİP (50 nəfərlik)
Peşəkar tur rəhbəri
Limitsiz çay
Tufandağ kompleksinə giriş
Gəzintilər
Disko
6 yaşa kimi uşaqlar üçün ödənişsiz (yer tutmamaq şərti ilə)

## Şahbuz rayonundakı "Ağbulaq İstirahət Mərkəzi"

Pistə giriş 10 AZN
Kanat xətti bir istifadə 5 AZN
Kanat xətti günlük 20 AZN
Dəbilqə GÜNLÜK 5 AZN
Eynək GÜNLÜK 5 AZN
Gödəkçə GÜNLÜK 5 AZN
Papaq GÜNLÜK 5 AZN
Şalvar GÜNLÜK 5 AZN
Ayyaqqabı GÜNLÜK 20 AZN
Xizək dəsti GÜNLÜK 20 AZN
XİZƏK geyim dəsti GÜNLÜK 20 AZN
Kirşə 1 saat 10 AZN
Kirşə 2 saat 12 AZN
Motor turu 1 nəfər-1 tur-8AZN
Motor turu VİP 1 nəfər - 1 tur - 30 AZN
Dırmanma divarı 10 dəqiqə 3 AZN, 20 dəqiqə 6 AZN, 30 dəqiqə 9 AZN.

***Ayşən Vəli***

# Trampın oğlu Qrenlandiyaya səfərə gedir - NİYƏ?



Amerikanın seçilmiş prezidentinin oğlu kiçik Donald Tramp çərşənbə axşamı, yanvarın 7-də Qrenlandiyaya gələcək. SİA bu barədə Danmarks radiosu Mininqxuaka adasının xarici əlaqələr departamentinin rəis müavini Kleist-ə istinadən xəbər verir. Rəsmi şəxsin sözlərinə görə, kiçik Tramp şəxsi səfəri zamanı Qrenlandiya hökumətinin üzvləri ilə görüşlər keçirməyi planlaşdırmır. Öz növbəsində, Qrenlandiyanın ictimai televiziya və radio kanalı xəbər verir ki, Tramp kiçik Donald Trampı Milad bayramları arasında Qrenlandiyaya səfərə dəvət edən hakim Sosial Demokrat Partiyasının rəhbəri Siumut Erik Censen ilə görüşməyi planlaşdırır. Trampın oğlunun səfəri Qrenlandiyanın gələcəyi ilə bağlı gərgin siyasi müzakirələrin aparıldığı vaxta təsadüf edir.

Xatırladaq ki, Tramp dekabrın 23-də Danimarkanın bir hissəsi olan Qrenlandiyanın ABŞ-ın mülkiyyətinə keçməli olduğunu bildirmişdi. Gələcək Amerika prezidenti qeyd edib ki, Qrenlandiyaya sahiblik və nəzarət "mütləq zərurətdir". Onun sözlərinə görə, bu, "bütün dünyada milli təhlükəsizlik və azadlıq məqsədləri üçün" lazımdır. Trampın 2019-cu ildə ilk prezidentliyi dövründə Amerika mediası onun Danimarkanın tərkibində olan və geniş muxtariyyət hüquqlarına malik olan Qrenlandiyanı əldə etmək imkanı ilə maraqlandığını yazıb. Krallığın səlahiyyətliləri bu ideyanı absurd adlandıraraq Qrenlandiyanın satışını müzakirə etməkdən imtina ediblər. Trampın açıqlamaları fonunda Danimarka hökuməti Qrenlandiya üçün müdafiə xərclərini artırdığını açıqlayıb. Maliyyə dəstəyi ən azı 1,5 milyard dollar olacaq. Bu arada Qrenlandiyanın baş naziri Mute Egede adanın Danimarkadan müstəqilliyinə nail olmaq istəyini qeyd edib.

### Bu arada...

Qrenlandiyanın baş naziri Mute Egede Yeni il çıxışı zamanı adanın Danimarkadan müstəqilliyinə nail olmaq arzusunu vurğulayıb. Bu barədə cümə günü, yanvarın 3-də Reuters agentliyi məlumat yayıb. "Bizim özümüz bir addım atmağın və gələcəyimizi, o cümlədən kiminlə sıx işləyəcəyimizi və ticarət tərəfdaşlarımızın kim olacağımızı formalaşdırmağın vaxtıdır...

Tarix və müasir şərait göstərdi ki, Danimarka Krallığı ilə əməkdaşlığımız tam bərabərlik yaratmaqda uğurlu olmayıb. Ölkəmizin növbəti addımı atmasının vaxtıdır. Dünyanın digər ölkələri kimi, biz də əməkdaşlığa maneələri aradan qaldırmağa çalışmalıyıq - bunu müstəmləkəçilik zəncirləri kimi təsvir edə bilərik - və irəli getməliyik", deyib. O əlavə edib ki, müstəqillik haqqında qərar Qrenlandiya xalqı tərəfindən verilməlidir, lakin səsvermənin nə vaxt keçiriləcəyini açıqlamayıb.

Qrenlandiyada müstəqillik hərəkatı, qismən 20-ci əsrdə Danimarka hökumətinin sui-istifadəsinin ifşası, xüsusən də 1960-cı illərdə başlanmış məcburi doğuşa nəzarət kampaniyası səbəbindən son illərdə sürət qazanıb. Qrenlandiya 1953-cü ilə qədər Danimarka müstəmləkəsi idi, lakin indi Danimarkanın muxtar ərazisidir. 2009-cu ildə ada səsvermə yolu ilə müstəqillik tələb etmək hüququ qazanıb. 2023-cü ildə Qrenlandiya hökuməti ilk konstitusiya layihəsini təqdim edib. Bundan əvvəl ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp Qrenlandiyanın alınmasından danışıb, bir neçə dəfə Kanadanın ABŞ-ın 51-ci ştatı olmasını təklif edib, həmçinin Panama dəhlizini Amerikanın nəzarətinə qaytarmaqla hədələyib.

**V.VƏLİ**

# Bayramdan sonra işə necə adaptasiya olmalı?

*AYDINLIQ GƏTİRİLDİ*



"Bayramdan sonra işə adaptasiya prosesi, işçilərin uzun bir tətil dövründən sonra iş mühitinə yenidən inteqrasiya olunması zamanı qarşılaşdıqları bir sıra çətinlikləri əhatə edir. Tətillər, insanların zehni və fiziki olaraq istirahət etmələrinə imkan yaratsa da, bu dövrün ardınca işə qayıdış bir çox insan üçün çətin ola bilər. Bayramdan sonra işə adaptasiya olunarkən qarşılaşılan çətinliklər və bu çətinliklərin aradan qaldırılması üçün atılacaq addımlar vacibdir". Bu sözləri SİA-ya açıqlamasında sosial məsələlər üzrə ekspert İlkin Hüseynov deyib.

İlkin Hüseynov sözlərinə belə davam edib: "Birinci əsas çətinlik, işə qayıdan şəxslərin yenidən işə başlamadan əvvəl lazım olan motivasiya və enerjini tapmaqda çətinlik çəkmələridir. Uzun müddət davam edən tətil dövrü, işçilərin stressi artıran amillərdən biridir. Bayram tətili zamanı bir çox işlər yığılabilir, bu isə işçilərin özlərini təzyiq altında hiss etmələrinə və işə uyğunlaşmalarının daha çətin olmasına səbəb olur. Bu vəziyyət həmçinin işçilərin psixoloji stressini artırır və onların iş mühitində daha çox gərginlik yaratmalarına yol açır.

Bayramdan sonra işə adaptasiya prosesini asanlaşdırmaq üçün işçilərin bir neçə üsuldan istifadə etməsi faydalı ola bilər. İlk növbədə, işçilərin tətil zamanı pozulan rutinlərinə yenidən uyğunlaşmaları üçün mərhələli bir yanaşma tətbiq etmələri vacibdir. Bu, işə başlamaq üçün onların daha hazırlıqlı olmalarına kömək edəcəkdir. Tapşırıqların və iş həcminin təhlili və prioritetləşdirilməsi, işçilərin stress səviyyəsini azalda bilər.




Eyni zamanda, işə uyğunlaşma prosesində iş yoldaşları ilə müsbət əlaqələr qurmaq, qarşılıqlı dəstək və əməkdaşlıq, adaptasiya prosesini sürətləndirə bilər. Mütəmadi olaraq qısa fasilələr vermək və tətilin təsirini azaldacaq müxtəlif psixoloji metodlardan istifadə etmək də faydalı ola bilər. Beləliklə, işçilərin işə qayıdışı daha məhsuldar və daha az stresli olacaqdır.

Nəticə olaraq, bayramdan sonra işə adaptasiya prosesi, işçilərin psixoloji və fiziki cəhətdən uyğunlaşmalarını tələb edən bir dövrüdür. Bu dövrü asanlaşdırmaq üçün düzgün planlama, stressin idarə olunması və sosial dəstək sistemləri əhəmiyyətli rol oynayır. Tətildən sonra işə qayıdışın daha uğurlu olması üçün bu üsulların tətbiqi işçilərin daha yüksək məhsuldarlıq və məmnuniyyətlə işə qayıtmasına şərait yaradacaqdır".

Bundan əlavə, işə qayıdış zamanı çox sayda təcili tapşırıq və iş həcminin toplanması da gündəlik rutinlərini pozduğu üçün, işə uyğunlaşma və yeni tapşırıqlara başlamaq üçün lazım olan diqqət və enerji azalmış olur. Bu, işçilərin işə qayıdışında ilk günlərdə diqqətini toplamaq və performansını artırmaqda çətinlik yaratmağa səbəb olur.

Bayram tətili zamanı sosial və şəxsi fəaliyyətlərə daha çox vaxt ayrıldığı üçün, işə başlamaq üçün fərdi mühitin yenidən yaradılması da çətin ola bilər. İnsanlar, sosial əlaqələr və şəxsi istirahətə verdikləri əhəmiyyəti iş mühitindəki tələblər və iş təzyiqi ilə balanslaşdırmaqda çətinlik çəkə bilərlər. Bu zaman işçilər arasında psixoloji yorğunluq və narahatlıq hissi yarana bilər.

**Ayşən Vəli**



*FELYETON*

# Əşi, əl çək də!

Deyəndə ki, çoxlarımız geridə qalmışıq, məni qınayırlar ki, sən özün geridə qaldığın üçün müasirliyi görə bilmirsən. Dedim axı necə edim ki, özümə bir çəki-düzən verim, mən də müasirləşim, öndə olanların cərgəsinə qoşulum. Fikirləşdim ki, gözlərimi dörd açmalıyam bundan sonra. Gör-götür dünyasıdır. Baxım, görüm, nə görürəm?..

Şənbə günü metroda qatara girən kimi gözlərimi dörd açdım ki, bu müasirliklərdən bəlkə bir-ikisini əxz edəm. Baxdım ki, qarşımda bir ana, bir də 5-6 yaşında olan balası əyləşib. Ana özündən razı, müasirliyi ilə ətrafdakılara meydan oxuyan biri idi. Hələ onu da düşündüm ki, görən bunun metroda nə işi var, yoxsa bizim kimi onun da maşını yoxdur, ya da ki, şəhərdəki "probkadan" cana gəlib yerin üstündən imtina edib, altına girib.

Nə isə, uzun sözün qısası, bu ana-balanın hər birinin əlində iri bir smartfon var idi. Uşaq səsli-küylü bir oyun oynayırdı. Ana da telefonda elə məşğul idi ki, başını qaldırıb ətrafa nədir, uşağına da arada-bir baxmırdı. Birdən uşağın əli nəyəsə toxundu və yəqin ki oyun itdi. Anasını dümsüklədi. Ana da uşağın üzünə belə baxmadı. Çiyinlərindən qırqovul kimi yapışıb, o tərəfindən götürüb bu tərəfinə qoydu. Yox, qoymadı, çırpdı və "əşi, əl çək də",- deyərək elə ucadan bir səs çıxardı ki, hamı çönüb onlara baxdı.

Uşaq da qəfil zərbədən elə bil "zıq" elədi və səsini kəsdi. Düzdür, yenə telefonda nəyəsə baxırdı. Amma qorxudan ta anadan heç nə soruşmadı.

Ananın da qaş-qabağı yernən gedir. Özü başdan-ayağa ağappaq geyinsə də, deyirsən bəs, Qara dənizdə gəmiləri batıb. Elə bu zaman qatar dayandı. Ana uşağın qolundan yenə qırqovulsayağı dartıb qatarın qapısından bayıra atdı.

Dedim bax, bu da mənim əməlim. Saki gözlərimi dörd açmışam, gördüyümə bax. Düzü, gördüyüm mənzərə heç xoş olmadı. Nə deyirsiniz, mən də müasir olmaq üçün belə edim? Azyaşlı uşağın əlinə telefon verib müasir ailə modeli yaradım? Verə bilmərəm. Birini də özüm alım əlimə, uşaqdan xəbərim olmasın? Edə bilmərəm. Uşaq bir söz soruşanda onu ora-bura çırpım? Yox, əsla edə bilmərəm. Özüm də başdan-ayağa ağappaq geyinim ki, mən müasirəm, dəblə ayaqlaşıram, hamıdan fərqliyəm? Bunu da edə bilmərəm. Çünki gözümlə gördüm ki, ağ necə də tez ləkə götürür.

Yox, yox ay bacılar, qardaşlar, məni anlayın, başa düşün. Mən çöldəki müasirlikdən yox, içəridəkindən istəyirəm. İçərini də görə bilmədiyim üçün, deməli, mən həmişə geridə qalmış olacağam.

**Mətanət Məmmədova**

# Makron diktaturası Fransanı uçuruma sürükləyir



2025-ci ildə Cənubi Qafqaz üçün ən mühüm perspektiv sülhdür. Təəssüflər olsun ki, bu regionda möhkəmlənməyə çalışan Fransa Azərbaycan və Ermənistan arasında sülh sazişi üzrə danışıqlara müdaxiləyə cəhd etməklə, Cənubi Qafqazda qarşılıqlı faydalı münasibətlərin formalaşmasına mane olur. Bu məqsədlə rəsmi Paris İrəvanı fəal şəkildə silahlandırır, eyni zamanda, Zəngəzur dəhlizi də daxil olmaqla nəqliyyat kommunikasiyalarının açılmasına yönəlmiş istənilən təşəbbüsə qarşı çıxır. Bununla kifayətlənməyən rəsmi Paris Ermənistanın maraqlarına xidmət edərək ölkəmiz haqqında böhtan kampaniyası aparır. Fransanın dövlət başçısından, xarici işlər nazirindən bu ölkənin İrəvandakı səfiri Olivye Dekotiniyə qədər Ermənistanın "vəkili" funksiyasını yerinə yetirməkdədirlər. Digər tərəfdən, Fransanın bir sıra kütləvi informasiya vasitələri də Azərbaycana qarşı böhtan və iftiralar səsləndirməklə rəsmi Parisin qərəzli mövqeyini ifadə edir.

Eyni zamanda, Fransa parlamenti də Azərbaycana qarşı qərəzi ilə xüsusi fərqlənir. Ölkəmizin ərazi bütövlüyü və suverenliyini bərpa etməsindən sonra bu ölkənin parlamentinin hər iki palatasında qəbul edilmiş sənədlər bunun göstəricisidir. Belə ki, həmin sənədlərdə Azərbaycan əsassız olaraq ittiham edilir, Ermənistana və Qarabağda mövcud olmuş erməni separatçılarına açıq dəstək verilir. Bütün bunların beynəlxalq hüquq normalarına zidd olmasına baxmayaraq, Fransa parlamenti ölkəmizə qarşı qərəzindən əl çəkmək istəmir. Bu prosesdə parlamentin ayrı-ayrı üzvləri də "fəal" rol oynayırlar.







Bu yaxınlarda Avropa Parlamentinin Fransadan olan deputatı, Azərbaycana qarşı ənənəvi olaraq qərəzli münasibət sərgiləyən Natali Luazo Ermənistanın "Armenpress" mətbuat orqanına verdiyi müsahibəsində sülh prosesini pozmağa xidmət edən fikirlər səsləndirib. Müsahibəsində bir tərəfdən guya Ermənistanın suverenliyinin qeydinə qaldığını göstərməyə çalışan fransız siyasətçi, digər tərəfdən suveren ölkə adlandırdığı Hayastana Azərbaycanla danışıqlarda hansı mövqedən çıxış etməli olduğuna dair ağıl öyrədir. N.Luazo Xocalı soyqırımı daxil olmaqla çoxsaylı müharibə cinayətləri və insanlıq əleyhinə cinayətləri törətməkdə şübhəli bilinən şəxslərin azad edilməsi kimi əsassız tələb irəli sürməklə hüquqazidd yanaşmasını bir daha ortaya qoyur. Bütün bunlar Natali Luazonun məsələyə irqi əsasda ayrı-seçkiliklə yanaşmasını və sülhə qarşı olmasını bir daha sübut edir. Bu, həmçinin ona Avropa Parlamentinin Cənubi Qafqaz ölkələri üzrə əlaqələr heyətinin rəhbər müavini rolunun həvalə edilməsinin nə qədər yanlış olduğunu göstərir.



Ermənistanın Azərbaycana hərbi təcavüzünün ilk illərində Qərbi Azərbaycandan və işğal olunmuş ərazilərimizdən qovulan soydaşlarımızın taleyinə biganə qalan Fransa indi əsassız olaraq Qarabağda az sayda erməninin "etnik təmizlənməyə" məruz qalması barədə dezinformasiya yayır. Rəsmi İrəvanın da Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf etdiyi halda, Paris mütəmadi olaraq bölgədən könüllü çıxan erməni sakinlərin geri qayıtması üçün canfəşanlıq edir. Eləcə də Fransa Avropa İttifaqının Müşahidə Missiyası adı altında öz casuslarını Ermənistanla Azərbaycan arasındakı şərti sərhəddə yerləşdirib. Hadisələrin gedişatı onu deməyə əsas verir ki, Fransa Cənubi Qafqazla bağlı məkrli planlar həyata keçirməyə çalışır. Rəsmi Parisin qərəzli mövqeyi Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə xidmət edir, sülh gündəliyinin həyata keçirilməsinə, iki ölkə arasında münasibətlərin normallaşmasına mane olur.

Qeyd etməliyik ki, Fransanın hazırki mövqeyi Cənubi Qafqazda sülhə və təhlükəsizliyə böyük təhdiddir. Ermənilərin maraqları naminə bu ölkə beynəlxalq hüquqa hörmətsizlik edir, bəşəri dəyərləri ayaqlar altına atır. Bu, o deməkdir ki, Fransa hökuməti və parlamenti, bu ölkənin ayrı-ayrı siyasi dairələri uzun illərdir açıq irqçi, azərbaycanofob, türkofob və islamofob fəaliyyət nümayiş etdirirlər. Bu yanaşma artıq Fransanın dövlət siyasəti səviyyəsinə çatıb. Eyni zamanda, Fransa parlamentinin qərarları beynəlxalq hüququn normalarına və prinsiplərinə zidd olmaqla, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı qərəzli və ədalətsiz addımdır.



Bir mühüm nüans unudulmamalıdır ki, Fransanın və digər anti-Azərbaycan siyasət yürüdən qüvvələrin Ermənistanı silahlandırması və ona siyasi dəstək verməsi vaxt itkisindən başqa bir iş deyil. Fransa kimi dövlətlər Cənubi Qafqaza nə qədər əl uzatsalar da Azərbaycanın geosiyasi mövqeyi, beynəlxalq arenada günü-gündən artan nüfuzu bu regionda marağı olan güclərin ölkəmizlə hesablaşmasına zəmin yaradır.

Heç kəsə sir deyil ki, Fransa müasir dünyamızda yeni müstəmləkəçilik siyasətini həyata keçirir. Özü tarixən müstəmləkəçi dövlət olub. Onun Qərbi Afrikada törətdiyi cinayətlər hər kəsə bəllidir. Əlcəzairdə soyqırımı siyasətini həyata keçirib. Bu gün də Fransa eyni siyasəti davam etdirir. Dənizaşırı ölkələrdə Fransanın yeritdiyi siyasət ucbatından bu gün sözün həqiqi mənasında həmin ərazilərin insanları çox böyük fəlakətlərlə üzüzə qalıb. Xüsusilə rəsmi Parisin Yeni Kaledoniyada törətdiyi cinayət bütün bəşəriyyətə bəllidir. Ölkəmiz haqlı olaraq Fransanın apardığı müstəmləkəçilik siyasətinə qarşı dünyanın dörd bir yanında haqq səsini qaldıran xalqların hüquqları ilə bağlı mövqe bildirərək, beynəlxalq tribunalardan rəsmi Parisin neokolonializm siyasətini tam çılpaqlığı ilə ifşa edir. Makron hökumətinin diqqətinə çatdırılır ki, müstəmləkə siyasəti və ya yerli xalqlara qarşı aparılan hüquqa zidd addımlar heç bir halda Fransanın daxili işi hesab oluna bilməz. Azərbaycan məhz bu səpkili fəaliyyətlə əslində insan hüquq və beynəlxalq hüququn təməl prinsiplərini müdafiə edir.

Dünyaya demokratiya dərsi keçməyə cəhd edən Fransanın istər müstəmləkə altında saxladığı xalqlara, istərsə də elə sadə fransızlara qarşı həyata keçirdiyi siyasət Makron hakimiyyətinin eybəcərliyini bütün çılpaqlığı ilə ortaya qoyur. Bu səbəbdən,Fransada açıq şəkildə etiraf olunur ki, Makron ölkənin rəmzi olmaq şərəfini itirib. Daxili və xarici siyasətdəki uğursuzluqlar, parlamentdə impiçmentinə cəhdlər göstərilməsi, cəmiyyətin onu iqnor etməsi, müxtəlif görüşlərdə insanların onun ünvanına nalayiq sözlər söyləmələri, sifətinə sillə vurmaları, tez-tez yumurta atəşinə "qonaq" etmələri, gözlənildiyi kimi, Yelisey Sarayının sahibində özünəinam hissini azaldıb və müəyyən komplekslər yaradıb. Fransanın gündəlik qəzeti olan "Le Figaro"nun sifarişi ilə Odoxa-Backbone sosioloji xidmətinin keçirdiyi sorğunun nəticələrinə əsasən, respondentlərin 61 faizi hazırkı dövlət başçısının istefasını istəyir. 2024-cü il Fransa Prezidenti Emmanuel Makronun siyasi karyerasında ən uğursuz illərdən biri olub, desək heç də yanılmarıq.

Göründüyü kimi, Fransanın həm daxili, həm də xarici uğursuzluqlara düçar olub. Makron diktaturası yaxşı olar ki, Cənubi Qafqazda suları bulandırmaq əvəzinə öz daxilindəki problemlərin həlli üçün baş sındırsın.

***Yaqut Ağaşahqızı***

# Svyatoslav Andrianov: “Qərbin Qafqaza təsiri azalacaq, qlobal siyasətdə ciddi dəyişiklik olacaq”

**_Rusiyalı politoloq, Siyasi Təhlil və İnformasiya Təhlükəsizliyi Mərkəzi beynəlxalq ictimai təşkilatının direktoru, Almaniya Xarici Siyasət Şurasının üzvü, Avrasiyada Strateji Tərəfdaşlıq üzrə Berlin Komitəsinin sədri Svyatoslav Andrianov caliber.az-a müsahibəsində Qafqazda gedən proseslər haqda maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik._**

***-Almaniyanın xarici işlər naziri Annalena Barbokun COP29-da Azərbaycana qarşı əsassız ittihamlar səsləndirilən çıxışından sonra Bakı ilə Berlin arasında münasibətlər pisləşib. Həm də Barbokun Almaniya hökumətində təmsil etdiyi Yaşıllar Partiyasının mövqeyinin sürətlə populyarlığını itirdiyi bir vaxtda. Almaniyada seçkilərdən sonra nə dəyişə bilər? Almaniya ilə Azərbaycan arasında münasibətlər necə inkişaf edəcək? Almaniya siyasətində Azərbaycan əleyhinə cərəyanlar ümumiyyətlə nədən formalaşır?***

-Başlamaq üçün, mən yenə də hörmətli oxucunu düşünməyə dəvət edərdim ki, ”Birlik 90/Yaşıllar” partiyası həqiqətən də onların iddia etdiyi kimi sol-liberaldırmı? Son illərdə bu partiyanın ritorikası bəzi yerlərdə açıq-aşkar sağçı liberal xarakter aldı, çünki bu haqda Almaniya mediası- Die Zeit-dən Spiegel-ə qədər- dəfələrlə yazmışdı. Və bu ziddiyyət partiyanın həm daxili, həm də beynəlxalq yollardakı siyasətini getdikcə daha çox səciyyələndirir: real azadlıq üçün daha çox qadağalar və nəzarət, sülh üçün isə daha çox silah lazımdır. Bütün bunlar bir qədər Corc Oruellin məşhur ”1984” romanını xatırladır.

Berlin və Bakı arasında münasibətlər bu il fevralın 23-dən sonra Almaniya parlamentində siyasi konfiqurasiyaya uyğun inkişaf edəcək. Xarici siyasət prioritetləri və mövqeləri bir çox ilkin amillərdən asılı olaraq Berlin tərəfindən tənzimlənəcək, mən ilk növbədə gələcək hökumət koalisiyasının xüsusiyyətlərini, o cümlədən nazir kürsüsünü tutacaq şəxsləri, eləcə də bu məsələni və müddəaları qeyd edərdim.

Təhlükəsiz güman edə biləcəyim bir şey odur ki, hər halda Yaşıllar yenidən hökumət koalisiyasına daxil ola bilsələr belə, Xristian Demokratlar çətin ki, onlara xarici işlər naziri portfelini verəcəklər. Ancaq Almaniyanın yenidən xarici siyasət idarəsinin ”yaşıl” rəhbəri olacağını düşünsək belə, çoxlu bağışlanmaz səhvlərə yol verən Barbok 100% olmayacaq- yeri gəlmişkən, bunu öz partiyadaşları da deyib. Daha real ssenariləri nəzərə alsaq, o zaman ASDP-dən olan cənab Klinqbeylin gələcək vitse-kansler və xarici işlər naziri olmaq şansı çox yüksəkdir.

Almaniyada qarşıdan gələn seçkiləri proqnozlaşdırmaq üçün Şərqi və Qərbi Almaniya federal əyalətləri arasında artan parçalanma tendensiyasını da nəzərə almaq



lazımdır. Bu məsələdə Kerber Fondunun keçirdiyi sorğunun göstəriciləri belədir: Qərbi Almaniya sakinlərinin 50%-i hesab edir ki, Ukrayna Rusiya ilə mübarizəni davam etdirməlidir, 40%-i isə ərazilərin atəşkəs üçün dəyişdirilməsinin tərəfdarıdır. Şərqi Almaniyada 52% erkən atəşkəsin, yalnız 38% isə müharibənin davam etdirilməsinin tərəfdarıdır. Bu, mühüm göstəricidir, çünki Ukrayna münaqişəsi istisnasız olaraq faktiki olaraq bütün tərəflərin seçkiqabağı diskursunda üstünlük təşkil edəcək.

Böyük ehtimalla Almaniyanın növbəti hökuməti sağ mərkəzçi siyasi partiyalar bloku nümayəndələrindən ibarət olacaq. Bu, Azərbaycana münasibətə necə təsir edəcək? Qlobal olaraq, heç bir şəkildə. Almaniyanın Azərbaycanla bağlı siyasətini başa düşməyin açarını ”biz ticarət edirik, amma siyasəti tənqid edirik” düsturu kimi müəyyən edərdim. Almaniya ilə Rusiya arasındakı münasibətlərdə də hər şey eynidir. Və vəziyyətin dəyişməsi mümkün deyil. Bizneslə məşğul olmaq, hakimiyyəti tənqid etmək Almaniyanın yaxın 5 ildə Azərbaycana qarşı xarici siyasətinin kredosudur. Yeganə sual bu tənqidin dərəcəsidir.

***- 2024-cü il dekabrın əvvəlində Konrad Adenauer Fondunda Almaniya prezidenti Ştanmayerlə görüşdə iştirak etdiniz. Ölkənin yüksək səviyyəli rəsmisi ilə ünsiyyətdən hansı təəssüratlar aldınız, hansı mövzular müzakirə olundu?***

-Mənim iştirak etdiyim prezident Ştaynmayerlə görüşdə onlar mürəkkəb daxili siyasi məsələni müzakirə etdilər: məcburi hərbi xidmətin bərpası. Ukraynadakı münaqişə və Avropanın müdafiəsinin ilk növbədə Avropanın özü üçün başğrısı olması lazım olduğunu açıq şəkildə bəyan edən Donald Trampın Ağ Evə qayıdışı, fikrimcə, Almaniyada bu qərarın qəbulunu qaçılmaz edir. Hazırda ölkədə bu mövzu ilə bağlı qızğın müzakirələrin getməsinə baxmayaraq, mən icbari hərbi xidmətin bərpa olunacağını ehtimal etməyə cəsarət edirəm. Nə vaxta kimi, kim, harada və hansı şərtlərlə çağırılacaq- bütün bunlar mahiyyəti dəyişməyəcək mübahisəli suallardır.

Əgər Almaniyanın Cənubi Qafqaza münasibətinə daha geniş nəzər salsaq, mən Ukrayna münaqişəsinin region üçün böyük əhəmiyyətini qeyd edərdim. 2022-ci ildən Moskvanın regionda əvvəlki təsir imkanlarını itirməsi, Aİ-nin isə əksinə, öz təsirini gücləndirmək üçün bir sıra addımlar atması səbəbindən regionun gələcəyi bu faktlardan asılı olmaya bilməz. Hazırkı konfiqurasiyada isə yeni regional nizamın formalaşması sahəsində əsas oyunçu Azərbaycandır.

Qısamüddətli regional proqnozlaşdırma prosesində biz iki əsas faktora diqqət yetiririk: Rusiya-Ukrayna münaqişəsinin sonunun konfiqurasiyası və Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin bağlanması. Üçüncü amil, yeni Brüsselin hərbi-siyasi faktoru hazırda heç bir mühüm rol oynamır, o cümlədən yuxarıda dediyimlə - Avropa özünün müdafiəsi ilə bağlı bütün məsuliyyəti ABŞ-dan götürməyə hazırlaşır, onu çətin günlər gözləyir, müdafiə xərcləri artmağa davam edəcək və bununla da siyasi və iqtisadi risklər artacaq.

Rusiyanın mövqeyinin regionda zəifləməsi səbəbindən ənənəvi olaraq Türkiyə ilə rəqabət aparan İran özünü daha fəal göstərməyə başladı, lakin buna baxmayaraq, Avropanın regionda təsirinin artmasının qarşısını almaq məsələsində hazırda İran, Türkiyə və Rusiya arasında sabit konsensus var. Əgər 3+3 formatının yaradılması istiqamətində başlanan iş uğurlu olarsa, bu, təkcə Brüsselin deyil, həm də Vaşinqtonun regionda təsir imkanlarını daha da azaldacaq.

Azərbaycan, Gürcüstan və Ermənistan aydın başa düşür ki, özlərindən başqa nə Avropa, nə də ABŞ region ölkələri üçün regional təhlükəsizliyə təminat verə bilməz. Eyni zamanda, potensial 3+3 formatında iştirakçılar arasında fikir ayrılıqları və inamsızlıq xarici təsirlərin qarşısının alınması bölgəni tez bir zamanda sabitləşdirmək istəyi ilə kompensasiya olunur. Əgər bu beynəlxalq siyasi layihə uğurlu olarsa, onun 6 iştirakçısının hər biri qalib mövqedə olacaq, çünki, məsələn, iştirakçı ölkələrin hər birinin öz maraqlarının olduğu Şimal-Cənub dəhlizinin inkişafı üçün, həmçinin regional sabitlik və təhlükəsizlik təməl daşıdır.

***- Beynəlxalq analitiklər müasir ümumavropa siyasətində parlaq siyasi liderlərin olmadığını dəfələrlə qeyd ediblər. Bu "beyin çatışmazlığı" nəticəsində Fransa prezidenti Makron kimi şəxslər öz zəhərli və iddialı gündəmi ilə Avropa lideri statusuna iddia etməyə başlayırlar ki, bu da quduz populizmdən başqa həm Fransaya, həm də bütün Avropaya faydalı heç nə gətirmir. Berlinlə Paris arasında çox çətin münasibətlər yaranıb. Siz Avropada Makron amilini necə qiymətləndirirsiniz, Almaniyada ötən illərin liderləri kimi, məsələn, Helmut Kol kimi yeni güclü liderin meydana çıxması şansı varmı?***

-Makron vahid Avropanın lideri kimi ambisiyalarını gizlətmir və fakt budur ki, Fransanın siyasi sisteminin xüsusiyyətləri elədir ki, onun mümkün daxili siyasi tələtümlərə baxmayaraq, prezidentlik müddətinin sonuna qədər sağ qalmaq şansı var. Makron Ukraynadakı münaqişədən Aİ daxilində nüfuzunu gücləndirmək üçün fürsət kimi istifadə etdi, Almaniya ilə bu ilin mayında Berlinə səfəri zamanı aradan qaldırılmış kimi görünən fikir ayrılıqları ona ciddi şəkildə mane oldu. Bununla belə, Almaniya və Fransa arasındakı münasibətlər Aİ-nin digər ölkələri arasındakı münasibətlərlə eyni problemlərə məruz qalır.

Bir tərəfdən fransız dilini öyrənən alman məktəblilərinin sayı ildən-ilə azalır və 2023-cü ildə Almaniyanın Höte İnstitutunun Fransadakı nümayəndəlikləri qalmaqalla bağlanıb. Alman turoperatorlarının məlumatına görə, tətil üçün Fransaya üstünlük verən Almaniya vətəndaşlarının sayı ildən-ilə azalır və hazırda populyarlıq baxımından 7-ci yerdədir. Nəsillərin dəyişməsi və ötən əsrin 60-cı illərində sıx və romantika dolu Fransa-Almaniya münasibətlərinin kökündə dayananların ölümü ilə iki xalq arasında tədricən yadlaşma baş verir, Almaniya-Fransa münasibətləri öz gücünü itirir. Digər tərəfdən, iki ölkə arasında ticarət əlaqələrini təhlil etsək, onun son illərdə xeyli yaxşılaşdığını görərik. Yenə deyirəm: oxşar vəziyyət Aİ-nin digər üzv dövlətləri üçün də keçərlidir. Eyni zamanda, Aİ vətəndaşları getdikcə nəinki vahid Avropa ideyalarından, ümumiyyətlə, bir-birindən uzaqlaşırlar.

Təbii ki, yuxarıda təsvir olunan problem Aİ daxilində mərkəzdənqaçma qüvvələrinə təsir edir və Prezident Makronun çoxdan tanıdığı və 2017-ci ildən müqavimət göstərməyə çalışdığı Avropadaxili parçalanmanın ciddi amilidir. Makron sitat gətirməyi xoşladığı görkəmli alman filosofu, ”Collece de France” professoru Peter Sloterdayk ilə mütəmadi olaraq fikir mübadiləsi aparır. Məsələn, cənab Sloterdayk mühazirələrində və əsərlərində daima Avropadakı ideya böhranından danışır, onun ”Avropa xüsusiyyətləri olmayan bir qitədir” adlı silsilə mühazirələri var. Bu ilin aprelində Sorbonnadakı çıxışında o, həm də ideya böhranını, Avropanın öz vətəndaşlarına təklif edəcəyi heç bir şeyin olmadığını, həmçinin Avropanın daha çox istehlak edib, daha az istehsal etməsi fikrini açıqladı.

Bütün bunlar bizə Makron faktorunun yaxın iki ildə Avropa səhnəsindən itməyəcəyini və bəlkə də güclənəcəyini fərz etməyə imkan verir, çünki sonuncu Avropanın bir çox məsələlərində prezident Trampla yaxşı münasibətlər qurub. Tramp ona güvənir, Almaniyanın gələcək kanslerinə yox. Həm Ukrayna münaqişəsində, həm də Cənubi Qafqaz regionunda Makron amilini qiymətləndirmək lazımdır-o, bir çox Avropa liderlərindən fərqli olaraq, ideyalar, ambisiyalar və enerji ilə doludur. Bu təhlükəli düşməndir, lakin onun imkanları məhduddur. Xüsusilə Qafqazda.

***- Heç kimə sirr deyil ki, uzun illər Avropa siyasətçiləri üçün müəyyənedici amil ABŞ-ın kursu və onun geosiyasi prioritetləri olub. İndi, qloballaşmanın tənəzzül çağında, getdikcə daha çox Qərbin mərkəzsizləşdirilməsindən danışırlar ki, Donald Tramp bu barədə bir neçə dəfə danışıb. Avropa Trampdan nə gözləyir? Onun öz kursu nə olacaq? Berlin 2025-ci ildə hansı meyarlara əsaslanır?***

- Prezident Bayden administrasiyası Ukraynadakı müharibəyə Amerikanın qlobal problemləri kontekstində baxırdı və Ukraynaya dəstək Amerikanın mühafizə siyasətinin bir hissəsi idi. Tramp açıq şəkildə bildirib ki, Avropanın problemləri Avropanın problemləridir və Ukrayna münaqişəsinin Amerika ilə heç bir əlaqəsi yoxdur- bu, regional xarakter daşıyır. Avropa bir daha müdafiə xərclərini artırmalı olacaq ki, bu da Rusiya sanksiyaları səbəbindən enerji resurslarının qiymətlərinin əhəmiyyətli dərəcədə artması və sənayesizləşdirmənin sürətlənməsi ilə birlikdə iqtisadi çətinlikləri artıracaq. ABŞ-ın yeni prezident administrasiyasının formalaşdırılması prosesinin özü, demək olar ki, qeyd-şərtsiz başa düşməyə imkan verir ki, Çin yaxın 4 ildə Vaşinqtonun diqqət mərkəzində 1-ci yerdə olacaq və bu, Amerikanın avropalı tərəfdaşlarına təsir etməyə bilməz və onlar münasibətlərin bu konteksti ”uyğunlaşmaq” məcburiyyətində qalacaqlar.

Qeyd etmək istədiyim ən mühüm şey hələ az adamın danışdığı bir şeydir, yeni qloballaşma xərclərinin və qlobal sərmayələrin effektivliyinin qiymətləndirilməsi baxımından amerikalıların xarici siyasət strategiyasına münasibətinin qlobal dəyişməsidir. Fikrimcə, bu proses Trampın ilk dəfə prezident seçilməsindən bir neçə il əvvəl başlayıb və yalnız 2020-ci il pandemiyasından sonra sürətləndi.

Trampın yeni prezidentlik müddəti bu siyasi prosesi yalnız sürətləndirəcək. ABŞ beynəlxalq alyanslara sərmayə qoyuluşuna qarşı getdikcə daha çox tənqidi mövqe tutacaq və bu tendensiya Trampın prezidentliyinin sona çatması ilə də aradan qalxmayacaq. Biz ABŞ-ın xarici siyasətinin effektivliyini qiymətləndirməkdə, investisiyalarına yenidən baxmaqda və dünyada öz rolu haqqında anlayışlarında qlobal dəyişikliklərin şahidi oluruq.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*

SON SƏHİFƏ

# SƏS

8 yanvar
2025-ci il


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Uşaqlar arasında yeni virus: ONLARI NECƏ QORUYAQ?



## *HƏKİM AÇIQLADI*

Son günlər Azərbaycanda uşaqlar arasında yeni virus yayılıb. Bəlğəmli öskürək, yüksək hərarət və boğaz ağrısı ilə müşahidə edilən xəstəlik valideynlərdə ciddi narahatlıq yaradıb. Bəs görəsən, yayılan virus nədir və azyaşlıları necə qorumalıyıq? Mövzu ilə bağlı SİA-ya həkim-pediatr Səbinə Məmmədova açıqlama verib. Onun sözlərinə görə, bu vəziyyət valideynlər arasında ciddi narahatlıq doğurub: "Mütəxəssislər problemin yayılma səbəblərini araşdırır və uşaqların sağlamlığını qorumaq üçün vacib tövsiyələr verirlər.

### Yayılan Virus Nədir?

Həkimlərin ilkin araşdırmalarına görə, bu virus tənəffüs yollarını təsirləndirən mövsümi virus infeksiyalarından biri ola bilər. Çox vaxt belə simptomlara səbəb olan xəstəliklər arasında aşağıdakılar yer alır:

Respirator Sinsetial Virus (RSV):

Xüsusilə körpələrdə və azyaşlılarda ciddi tənəffüs problemlərinə səbəb ola bilər. Qrip və ya Paragrip Virusu: Yüksək hərarət, boğaz ağrısı və öskürəklə müşahidə olunur.

Adenovirus: Tənəffüs yollarına təsir edərək bəlğəmli öskürək və hərarət yarada bilər.

### Simptomlar niyə daha şiddətlidir?

Mütəxəssislər bildirir ki, uşaqların immun sistemi hələ tam formalaşmadığı üçün belə infeksiyalar onlarda daha şiddətli şəkildə özünü göstərə bilər. Havaların dəyişməsi, gigiyena qaydalarına riayət edilməməsi və bağça və məktəb kimi kollektiv mühitlərdə sıx təmas virusun yayılmasını asanlaşdırır.

### Uşaqları Necə Qorumalıyıq?

Həkim-pediatrların tövsiyələrinə əsasən, valideynlər uşaqlarını qorumaq üçün aşağıdakı addımları ata bilərlər:

**1. Gigiyenaya Diqqət:**

Uşaqların əllərini tez-tez sabunla yumasını təmin edin.

Oyuncaqların və tez-tez toxunulan səthlərin dezinfeksiyasına diqqət edin.

**2. İmmuniteti gücləndirin**

Rasiona vitamin və minerallarla zəngin qidalar, xüsusilə təzə meyvə və tərəvəzlər əlavə edin.

Uşağın kifayət qədər yatmasına və dincəlməsinə şərait yaradın.

**3. Bağlı məkanlardan çəkinin:**

İnsanların çox olduğu qapalı məkanlardan mümkün qədər uzaq olun. Evdə havanı tez-tez dəyişin və otaqları havalandırın.

**4. Tibbi məsləhət alın:**

Simptomlar ortaya çıxdıqda dərhal həkimə müraciət edin. Özbaşına antibiotiklərdən istifadə etməyin.

**5. Maska və sosial məsafə:**

Əgər uşaq xəstədirsə, onu başqalarından uzaq tutmağa çalışın. Xüsusilə məktəb və bağça mühitində simptomlu uşaqların evdə qalması vacibdir.

### Valideynlərə çağırış

Həkimlər qeyd edir ki, profilaktik tədbirlər xəstəliyin yayılmasının qarşısını almaqda əsas rol oynayır. Hər hansı narahatlıq və ya simptomlarda gecikmədən mütəxəssislərə müraciət edin. Unutmayın ki, vaxtında müdaxilə xəstəliyin daha ciddi fəsadlara yol açmasının qarşısını ala bilər. Balalarımızın sağlamlığını qorumaq üçün birgə məsuliyyət daşıyırıq".

***Ayşən Vəli***

# Sarayda 66 yaşlı qadının küçədə meyiti TAPILDI



Abşeronda küçədə qadın meyiti tapılıb. SİA xəbər verir ki, hadisə Saray qəsəbəsi Vaqif küçəsində qeydə alınıb. 1959-cu il təvəllüdlü Şaxaxanım İmran qızı Əliyevanın evinin yaxınlığında küçədə yıxılaraq öldüyü bildirilir. Meyit aidiyyəti üzrə təhvil verilib. Fakt araşdırılır.

# Tək daş üzük taxdı, "nişanlanıb" deyə car çəkdilər...

***Tanınmış aktrisa Zendayan (Zendaya Koulman) ilə bağlı yeni xəbər yayılıb. Belə ki, gənc aktrisa sevgilisi, həmkarı Tom Hollandla nişanlandığı yenidən gündəmə gəlib. Buna da səbəb aktrisanın "Qızıl Qlobus" mükafatlarının təqdimetmə mərasimində iştirak edərkən tək daş üzük taxması olub.***



Qeyd edək ki, Zendaya və Tom "Hörümçək adam: Evdən uzaqda" filminin baş rollarını canlandırıb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**